AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

9 iyun 2017-ci il | № 41-44 (9135) | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### XXIV BEYNƏLXALQ "XƏZƏR NEFT VƏ QAZ-2017" SƏRGİSİNDƏ GƏMİÇİLİYİN STENDİ QARŞISINDA AYAQ SAXLAYAN ZİYARƏTÇİLƏR AZ DEYİLDİ




*Bakı Sərgi Mərkəzində XXIV Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgi və konfransı, həmçinin VII Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisi keçirilib.*

Səh. 2

### YÜKLƏRİN AVROPAYA VƏ ƏKS İSTİQAMƏTDƏ DAŞINMASI İŞLƏRİNİ KOORDİNASİYA ETMƏK ÜÇÜN İŞÇİ QRUPU YARADILACAQ



*Azərbaycan, Gürcüstan və İranın dəmir yolları Fars körfəzi regionundan və Hindistandan yüklərin Avropaya və əks istiqamətdə daşınması işlərini koordinasiya etmək üçün işçi qrupu yaradacaq.*

Səh. 3

### DƏNİZÇİLƏR KÖNÜLLÜ QAN VERİBLƏR



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində qanvermə aksiyası keçirilib. Mayın 26-da Xəzər Dəniz Neft Donanmasının və İstehsalat Xidmətləri İdarəsinin akt zallarında baş tutan bu nəcib tədbirdə Gəmiçiliyin əməkdaşları həvəslə iştirak ediblər. Toplanan donor qanları isə Səhiyyə Nazirliyinin Mərkəzi Qan Bankına təhvil verilib.*

Səh. 4

### UŞAQLARI BAYRAM HƏDİYYƏLƏRİ İLƏ SEVİNDİRMƏYİ DƏ UNUTMAYIBLAR



*Səbail Rayon İcra Hakimiyyəti "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilə birgə 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibəti ilə "Yaxt-klub"da bayram tədbiri keçirib.*

Səh. 5

### XƏZƏR DƏNİZİ SAHİLİNDƏ MONİTORİNQ APARILIB



*Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub sahil zolağında, çimərlik zonalarında və mühüm rekreasiya əhəmiyyətli qumsallıqlarda mütəmadi olaraq ekoloji vəziyyətin monitorinqini həyata keçirir.*

Səh. 6

### QALİB LİMANÇILARLA GÖRÜŞ KEÇİRİLİB



*İslam Həmrəyliyi Oyunlarında qalib gələn limançılarla görüş keçirilib.*

Səh. 8

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "QUBADLI" VƏ "CƏBRAYIL" GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK EDİB









***Mayın 31-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi donanmasının "Qubadlı" və "Cəbrayıl" adlı yeni təchizat gəmilərinin istismara verilməsi mərasimi keçirilib.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev və SOCAR-ın prezidenti Rövnəq Abdullayev "Qubadlı" və "Cəbrayıl" təchizat gəmilərinin texniki göstəriciləri, təyinatı barədə dövlətimizin başçısına məlumat verdilər.

Bildirildi ki, "Qubadlı" və "Cəbrayıl" təchizat gəmiləri bu tip gəmilərin tikintisi üzrə dünyanın qabaqcıl müəssisələrindən sayılan Norveçin "STX Norway Offshore" gəmiqayirma zavodunda inşa edilib. Gəmilərin hər ikisi müxtəlif növ yüklərin dəniz platformalarına çatdırılması üçün nəzərdə tutulub. Prezident İlham Əliyevin tapşırığına əsasən gəmilərə işğal altında olan rayonlarımızın adları verilib. Hər iki gəmi SOCAR-ın dəniz obyektlərinə xidmət edən köhnə gəmiləri əvəzləyəcək. Gəmilərdən biri SOCAR-a məxsus "28 May" yatağındakı, digəri isə "Ümid" yatağındakı platformalara yük daşıyacaq.

Qeyd olundu ki, gəmilərin hər birinin uzunluğu 73,6, eni 16 metrdir. Dedveyti 3270 ton olan gəmilər öz göyərtəsinə 1600 ton yük götürmək qabiliyyətinə malikdir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanmasında olan digər təchizat gəmiləri ilə müqayisədə bu gəmilərin bir sıra üstünlükləri var. Belə ki, yeni təchizat gəmiləri yanacaq, sürtkü yağı, qələvi məhlul, özül yağı, quru yük, içməli su, qazma məhlulu, konteyner, boru və bu kimi digər müxtəlif yükləri qəbul etmək üçün daha geniş göyərtəyə və böyük həcmli yük tanklarına malikdir. Müasir avadanlıqla, o cümlədən DP-2 dayanıqlılıq sistemi ilə təchiz olunan "Qubadlı" və "Cəbrayıl" gəmilərinin texniki xüsusiyyətləri sərt hava şəraitində dənizdəki platformalara yan almadan yükləmə-boşaltma əməliyyatını təhlükəsiz şəraitdə yerinə yetirməyə imkan verir. Gəmilərdə quraşdırılan yanğınsöndürmə avadanlığı isə dəniz obyektlərində yanğın baş verərkən hadisəyə ilkin müdaxilə etməyə şərait yaradır. Xilasetmə əməliyyatlarının yerinə yetirilməsi üçün hər bir gəmi xüsusi xilasedici qayıqla təchiz olunub. Qayıqların konstruksiyası kəskin hava şəraitində dənizdə axtarış və xilasetmə işlərinin yerinə yetirilməsini mümkün edir.

Dövlətimizin başçısı gəmilərin rəmzi olaraq istismara verilməsini bildirən düyməni basdı.

*(Ardı 2-ci səhifədə)*









*(Əvvəli 1-ci səhifədə)*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "QUBADLI" VƏ "CƏBRAYIL" GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK EDİB

Qeyd edək ki, davam edən qlobal iqtisadi böhran, dünya birjalarında neftin qiymətinin kəskin aşağı düşməsi fonunda ümumi beynəlxalq ticarət dövriyyəsinin kəskin azalmasına və bunun gəmiçilik sahəsində müəyyən problemlər yaratmasına baxmayaraq, Prezident İlham Əliyev Azərbaycanda gəmiçiliyin inkişafını diqqət mərkəzində saxlayır. Bu da Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanmasının müasir tələblərə cavab verən gəmilərlə yenilənməsinə geniş imkan yaradır. "Qubadlı" və "Cəbrayıl" təchizat gəmilərinin Xəzərdə istismara verilməsi də məhz bu istiqamətdə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə onun alyans partnyoru olan "Caspian Marine Services"in həyata keçirdiyi birgə layihədir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanmasının daim yenilənməsi və müasir tələblərə cavab verən gəmilərin tikilməsi prioritet məsələlərdəndir. Məhz dövlətimizin başçısının gəmiçilik sahəsinə göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir ki, təkcə son üç ildə 16 yeni gəmi donanmaya əlavə edilib. Bundan başqa, dörd gəmi-vaqon-TIR və sərnişin daşınması üçün nəzərdə tutulan yeni nəsil iki "Ro-Pax"/Bərə və iki tankerin tikintisi üzrə yeni sifariş Bakı gəmiqayırma zavoduna verilib.






Donanmanın yenilənməsi istiqamətində aparılan işlər Gəmiçiliyin təsdiq olunmuş strateji inkişaf proqramına, həmçinin "2016-2020-ci illərdə Azərbaycanda gəmiçiliyin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilir. Dövlət Proqramı ilə Xəzər hövzəsində və Xəzərdən kənarda beynəlxalq standartlara uyğun daşıma xidmətlərinin göstərilməsi, donanmanın yükdaşıma bazarlarındakı tələbata uyğun yenilənməsinin davam etdirilməsi, gəmi təmiri bazasının gücləndirilməsi, institusional islahatların davamı, gəmiçilik sahəsində yüksək ixtisaslı yerli kadrların hazırlanması təmin edilir. Bu sahədə görülən işlər Azərbaycanın regionda nəqliyyat-logistika qovşağına çevrilməsi strategiyasına, ölkənin tranzit potensialının gücləndirilməsinə və iqtisadiyyatın şaxələndirilməsi ilə qeyri-neft sektorunun inkişafına və milli gəmiçiliyin yükdaşımalar bazarında mövqeyinin möhkəmləndirilməsinə xidmət edir. Gəmiçiliyin fəaliyyət sahələrinin şaxələndirilməsi və bir bazardan asılılığının azaldılması ilə əlaqədar qarşıya qoyulan tapşırıqlara uyğun olaraq, 2014-cü ildə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi beynəlxalq sularda fəaliyyətini bərpa edib. Hazırda Xəzərdən kənar digər su hövzələrində Azərbaycan bayrağı altında on gəmi üzür.

Gəmilərlə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

# XXIV BEYNƏLXALQ "XƏZƏR NEFT VƏ QAZ-2017" SƏRGİSİNDƏ GƏMİÇİLİYİN STENDİ QARŞISINDA AYAQ SAXLAYAN ZİYARƏTÇİLƏR AZ DEYİLDİ

***Bakı Sərgi Mərkəzində XXIV Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgi və konfransı, həmçinin VII Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisi keçirilib.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 31-də sərginin açılışında iştirak ediblər. Dövlətimizin başçısı tədbirdə nitq söyləyib. Çıxışlardan sonra Prezident İlham Əliyev sərgilərlə tanış olub.

Xəzəryanı regionda energetika sektorunun ən əhəmiyyətli tədbiri olan XXIV Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgisi Azərbaycanın Energetika Nazirliyinin və Dövlət Neft Şirkətinin - SOCAR-ın dəstəyi, "ITECA Caspian" və "ITE Group" şirkətlərinin təşkilatçılığı ilə keçirilib. Bu il sərgidə dünyanın 30 ölkəsini təmsil edən 300-dək şirkət iştirak edib. Onların arasında Azərbaycan, ABŞ, Belarus, Belçika, İspaniya, İtaliya, Qazaxıstan, Çin, Niderland Krallığı, Polşa, Yaponiya və digər ölkələr var. İtaliya sərgidə öz milli pavilyonu ilə iştirak edib. İştirakçıların ümumi sayının 15 faizini təşkil edən debütantlar arasında ABŞ, Böyük Britaniya, Rumıniya və digər ölkələri təmsil edən şirkətlər yer alıb.

Şirkətlər sərgidə neft hasilatı, enerji daşıyıcılarının nəqli, neft-qaz saxlama sistemlərinin təmin edilməsi, habelə platformalar və üzən qazma qurğuları, eləcə də boruların çəkilməsi və boru xətlərinin təhlükəsizlik sistemlərinin təmin edilməsi ilə yanaşı, texniki qulluq xidmətləri üzrə avadanlıqlar, xidmətlər və innovativ texnologiyaların geniş çeşidini təqdim ediblər. Bir sıra ekspozisiyalar yanacağın təmizlənməsi və xammaldan istifadə üçün hazır məhsulların istehsalı üzrə texnologiyalara həsr olunub. Sərgidə böyük sahəni kimya sənayesi üçün xammal təklif edən şirkətlər tutub.














XXIV "Xəzər Neft və Qaz-2017" beynəlxalq konfransı neft-qaz sahəsinin aktual mövzularının müzakirəsi üçün ənənəvi platformadır. Aparıcı şirkətlərin rəhbər menecerlərini, habelə sahə nazirliklərinin nümayəndələrini və nüfuzlu ixtisas ekspertlərini vahid müzakirə platformasında bir araya gətirən neft-qaz forumu bu sənaye sahəsinin inkişafı üzrə aktual məsələlər haqqında fikir mübadiləsi üçün imkan yaradır. Konfransda dünyanın 30 ölkəsini təmsil edən 400-dək nümayəndə iştirak edib. Dünyanın müxtəlif ölkələrindən 40-dan çox məruzəçi, o cümlədən aparıcı ekspertlər, dövlət strukturlarının nümayəndələri, iri neft-qaz şirkətlərinin rəhbərləri aşağı neft qiymətləri şəraitində enerji daşıyıcılarının hasilatı, idarə olunması və nəqli üzrə əsas məsələlərlə bağlı çıxışlar ediblər.

Diqqəti gündən-günə qüdrətlənən gənc, müstəqil Azərbaycanın karbohidrogen ehtiyatlarına, Xəzər dənizində reallaşdırılan iri neft-qaz layihələrinə, əlverişli coğrafi məkanda yerləşən ölkəmizin tranzit imkanlarına yönəltmək baxımından da böyük əhəmiyyəti olan sərgidə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC də ayrıca stendlə təmsil olunub.

Sərgidə Gəmiçiliyin zəngin inkişaf tarixi, nəqliyyat və dənizdə neft hasilatı ilə bağlı hər cür dəniz nəqliyyatı xidmətləri təklif edən donanmaları haqqında videoçarx nümayiş olunub. Gəmiçiliyin stendi qarşısında ayaq saxlayan ziyarətçilər az olmayıb. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətini təmsil edən nümayəndələr ziyarətçiləri maraqlandıran bütün suallara ətraflı cavab veriblər.

"AXDG" QSC-nin sədri Rauf Vəliyev və qurumun digər rəhbər şəxsləri sərgidə olarkən stendimizlə yanaşı, birgə layihələr üçün maraqlı şirkətlərin təqdimatları ilə də yaxından tanış olublar.

Sərgilər 3 gün davam edib.

# BİZ QƏLƏBƏ GÜNÜNÜ BAYRAM EDƏCƏYİK
## BƏS SƏN QƏLƏBƏ ÜÇÜN NƏ ETMİSƏN?

***Bu sualla çox adama müraciət etdim. Ariflər nə soruşduğumu necə deyərlər, ilk sözümdən anladılar. Amma sualımı heyrətlə, təəccüblə, lap elə hiddətlə qarşılayanlar da oldu. Bəziləri mənə elə baxırdılar ki, sanki torpaqlarımızın namərd, məkrli, xain, naxələf qonşularımız tərəfindən işğal edilməsindən, müharibə şəraitində yaşadığımızdan, 1milyon soydaşımızın qaçqın-didərgin olmasından indi xəbər tuturlar. Bir çoxunun baxışları iç dünyalarını dərhal açıb ortaya qoyurdu...***

Yurdumuzun beşdə biri işğal altındadır. Qanımıza susamış ermənilər 25 ildən çoxdur ki, işğal etdikləri torpaqlarımızda at oynadırlar. 25 ildən çoxdur ki, dünya iyrənc-ikili standartları ilə haqqın, ədalətin təntənəsinə mane olur. 25 ildən çoxdur ki, bu məsələnin həllini çiyinlərinə götürən beynəlxalq təşkilatlar, müxtəlif qurumlar yol ölçməklə, boş-boş bəyanatlar verməklə, gah nala, gah mıxa döyməklə... məşğuldurlar. 25 ildən çoxdur ki...

Bütün bunları görən ermənilər də getdikcə həyasızlaşır, işğal etdikləri torpaqlarımızı talamaqda davam edirlər.

Deməli, bundan sonra yalnız özümüzə güvənməliyik.

Bu gün ölkəmizin iqtisadi gücü, siyasi potensialı Ermənistandan qat-qat üstündür. Azərbaycan Ordusu isə Cənubi Qafqazın ən güclü ordusudur.





Dövlətimizin bu məsələ ilə bağlı siyasəti bəllidir. Azərbaycan torpaqlarında ikinci qondarma "erməni dövləti"nin yaradılmasına imkan verilməyəcək. Bir qarış torpağımız da erməni işğalı altında qalmamalıdır və qalmayacaq. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa ediləcək. İşğal edilmiş bütün Azərbaycan torpaqlarında Azərbaycan bayrağı dalğalanmalıdır və dalğalanacaq. Dövlət bunun üçün hər şeyi edir və edəcək.

Bəli, biz Qələbə gününü bayram edəcəyik. Buna heç bir şübhəmiz yoxdur. Möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri ilə desək: "Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində baş vermiş hadisələr nəticəsində müvəqqəti olaraq torpaqlarımız işğal altına düşmüşdür. Ancaq biz öz suverenliyimizi bərpa edəcəyik. Bütün işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı qaldırılacaqdır. Bu, bizim məqsədimizdir və biz bu məqsədə çatmaq üçün daha da güclü ordu yaratmalıyıq."

Elə düşmənlərimiz də çox yaxşı bilirlər ki, azərbaycanlılar gec-tez onları işğal etdikləri Azərbaycan torpaqlarından qovub çıxaracaqlar... Bəs o günü tezləşdirmək, Qələbəni yaxınlaşdırmaq üçün biz, arxa cəbhədəkilər – mən, sən, o nə etmişik? Ordumuz nə qədər güclü olsa da, arxasında da ölkəmizin gündən-günə artan iqtisadi gücünü, bütün silahlı qüvvələrdən daha güclü bir ordunun gücünü - xalqın birliyini hiss etməli, görməlidir.

Bəs Ordumuzun güclənməsinə biz - mülki əhali hansı töhfələr veririk? Mətbuatda Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna yığılan vəsait barədə məlumatı müntəzəm izləyirəm. Sonuncu məlumatda cari ilin iyunun 1-dək 82 milyon 414 min 536,16 manat, 212 min 873,88 ABŞ dolları, 7436 avro və 5 min rubl vəsaitin yığıldığı bidirilir.

Silahlı Qüvvələrə Yardım Fondunun 15 il əvvəl (Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli fərmanı ilə) yaradıldığını nəzərə alsaq, etiraf edim ki, çox da böyük rəqəm deyil. Aprel ayının 1-nə olan vəziyyətə görə isə ölkə əhalisinin sayı 9829422 nəfərdir. Əhalinin sayına görə, çox da ürək açmayan bir rəqəm alınır.

Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədi ilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədi ilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan olunmamış digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçularının sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

Bu sözlər Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun dilindən çıxıb. "Bu gün Azərbaycan ordusu Ali Baş Komandanın birbaşa diqqət və qayğısı sayəsində o qədər güclüdür ki, Ermənistan bunu tam dərk edir..."

Bəli, bu gün Azərbaycan dövləti ordusunun dünyanın ən güclü silahlı qüvvələrindən birinə çevrilməsi üçün mümkün hər şey edir. Bəs biz? Torpaqlarımızın işğal altda olduğunu niyə unuduruq? Unutmağa haqqımız varmı?

Bu gün işləyən hər bir azərbaycanlının Silahlı Qüvvələr Fonduna müəyyən vəsait köçürməyə maddi imkanı çatar. Ən azı vicdanımızın rahatlığı üçün hansısa vəsaitdən keçə bilərik. Niyə keçmirik?

***Rasif TAHİROV***

# GƏMİÇİLİYİN XƏZƏR DƏNİZ NEFT DONANMASININ YÜKSƏK HAZIRLIQLI MÜLKİ MÜDAFİƏ DƏNİZ KƏŞFİYYATI MANQALARININ MƏŞQİ KEÇİRİLİB









***Təlim məşqə Donanmanın yüksək hazırlıqlı mülki müdafiə dəniz kəşfiyyatı qüvvələri olan "Orion-18" xüsusi xidmət və "Orion-17" yedək gəmiləri cəlb edilib.***

Əməli məşqin məqsədi Dənizkənarı Fövqəladə vəziyyət rayonunda Donanmanın yüksək hazırlıqlı mülki müdafiə dəniz kəşfiyyatı manqalarının fəaliyyətə hazırlığının yoxlanılması və fövqəladə vəziyyət dövründə komandir - rəis heyətinin mülki müdafiə qüvvələrinin idarə edilməsində əldə etdiyi praktiki nailiyyətlərin təkmilləşdirilməsidir.

Təlim zamanı Xəzər Dəniz Neft Donanmasının yüksək hazırlıqlı mülki müdafiə dəniz kəşfiyyatı manqası olan "Orion-18" xüsusi xidmət gəmisinin şəxsi heyəti fərdi mühafizə vasitələri, ordu kimyəvi kəşfiyyat və dozimetrik nəzarət cihazları ilə təchiz edilib.

Əməli məşq MM dəniz kəşfiyyat qüvvələrinin şəxsi heyətinin xəbərdarlıq edilərək toplanması ilə başlayıb və ardıcıl olaraq "Limanda dayanarkən gəminin yaşamaq qabiliyyəti uğrunda mübarizə", "Gəmidən suya düşən insanın xilas edilməsi", "Dənizdə keçid zamanı və zəhərlənmə oçağında radiasiya və kimyəvi kəşfiyyatın aparılması" və "Gəmidə qismən kimyəvi təmizləmə və dezaktivasiyasının aparılması" siqnalları üzrə davam etdirilib.

Nəticə olaraq, Xəzər Dəniz Neft Donanmasının yüksək hazırlıqlı mülki müdafiə dəniz kəşfiyyatı manqası "Orion-18" xüsusi xidmət gəmisinin şəxsi heyətinin düzgün qərar qəbul etmək bacarığına, kimyəvi kəşfiyyat və dozametrik nəzarət cihazından düzgün istifadə qaydalarına, onlara təhkim olunmuş ərazilərdə radioaktiv şüalanmanın, kimyəvi zəhərlənmənin aşkar edilməsi və nəticələrin aradan qaldırılması üzrə əlavə qüvvələrin cəlb edilməsinə, dənizdə və sahilyanı ərazilərdə mühəndis kəşfiyyatının təşkilinə, eləcədə baş verə biləcək fövqəladə halların qarşısının alınmasına və nəticələrin aradan qaldırılmasına hazır olduğu müəyyən olunub.

# BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATININ DƏNİZ TƏHLÜKƏSİZLİYİ KOMİTƏSİNİN 98-Cİ SESSİYASI



***İyunun 7-16-da Beynəlxalq Dəniz Təşkilatının (BDT) Böyük Britaniyanın paytaxtı London şəhərində yerləşən baş qərargahında Təşkilatın Dəniz Təhlükəsizliyi Komitəsinin 98-ci sessiyası keçirilir. 1995-ci ildən Azərbaycan Respublikasının üzv olduğu adıçəkilən Beynəlxalq Təşkilatın sessiyasında Azərbaycanı Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.***

Dəniz Administrasiyasının mətbuat xidmətindən bildirilib ki, sessiyanın gündəliyində etimadnamələr haqqında məruzə, Beynəlxalq Dəniz Təşkilatının digər üzvlərinin qərarları, əsas sənədlərə dair düzəlişlərin qəbulu və nəzərdən keçirilməsi, BDT-nin sənədlərinin erkən tətbiqi, dənizdə təhlükəsizliyin artırılmasına dair tədbirlər, yeni gəmilərin inşa edilməsinə dair standartlar, yük və konteynerlərin daşınması, çirklənmənin qarşısının alınması və cavab tədbirləri, insan amili, təlim və növbəçəkmə, gəmi dizaynı və konstruksiyası, naviqasiya, kommunikasiya, axtarış və xilasetmə, gəmi sistemləri və avadanlıqları, yeni tədbirlərin tətbiq edilməsi üçün potensial imkanların yaradılması, dəniz üzgüçülüyünün təhlükəsizliyinin qiymətləndirilməsi, gəmilərə edilən silahlı basqın və dəniz quldurluğu, qeyri-qanuni miqrasiya, BDT alətlərinin implementasiyası, beynəlxalq təşkilatlarla əlaqələr və digər mühüm məsələlərin müzakirəsi nəzərdə tutulub.

Sessiya zamanı "Dənizdə insan həyatının mühafizəsi haqqında 1974-cü il tarixli Beynəlxalq Konvensiya"ya (SOLAS), "Qaz və aşağı alışma temperaturuna malik digər yanacaqdan istifadə edən gəmilərin təhlükəsizliyi haqqında Beynəlxalq Məcəllə"yə (IGF Code), "Yüksək sürətli gəmi haqqında 1994-cü il tarixli Beynəlxalq Məcəllə"yə (1994 HSC Code), "Yüksək sürətli gəmi haqqında 2000-ci il tarixli Beynəlxalq Məcəllə"yə (2000 HSC Code), "Xilasedici vasitələr haqqında Beynəlxalq Məcəllə"yə (LSA Code), "Qalama üsulu ilə daşınan bərk yüklər haqqında Beynəlxalq Məcəllə"yə (IMSBC Code) təklif edilən düzəlişlərin qəbul edilməsi məsələləri nəzərdən keçiriləcək.

# CƏNUB İLƏ QƏRB ARASINDA YENİ LOQİSTİK DƏHLİZ YARADILA BİLƏR

***Məqsəd Azərbaycanın təbii coğrafi mövqeyindən istifadə edərək beynəlxalq yüklərin ölkəmizin ərazisindən keçərək daşınmasına nail olmaqdır. İnanırıq ki, bununla Azərbaycanın beynəlxalq nüfuzu və iqtisadi imkanları daha da artacaq.***

Bu sözləri AZƏRTAC-a müsahibəsində "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri, deputat Cavid Qurbanov söyləyib.

O deyib ki, yaxın vaxtlarda Azərbaycan, Gürcüstan, İran, Ukrayna və Polşanın iştirakı ilə Cənub ilə Qərb arasında yeni loqistik dəhliz yaradıla bilər. Bunun üçün artıq danışıqlar gedir və ilkin addımlar atılıb.

C.Qurbanov deyib: "Polşanın daxilində, Slavkov deyilən ərazidə bizim ölçülərə uyğun, yəni 1520 ölçüdə 400 kilometr uzunluqda dəmir yolu xətti var.



Bu da Avropa ölkələrindən yüklərin Azərbaycandan keçməklə Hindistan, Pakistan, İran və digər ölkələrə daşınmasında mühüm rol oynaya bilər. İlkin hesablamalara görə, bu yol üzərindən 72 milyon tona yaxın yük daşınır. Pul vahidi ilə ifadə etsək, Hindistan ilə Polşa arasındakı dövriyyə təqribən 3 milyard dollara yaxındır. İran ilə Ukrayna arasında isə təqribən 500-600 milyon dollar civarındadır.

Cavid Qurbanov deyib: "Astaradan Slavkoya olacaq yolun uzunluğu 3336 kilometrdir. Astaradan Rusiya ərazisindən keçməklə gedən yol isə 4 min kilometrdən çoxdur. Bizim təklif etdiyimiz yeni dəhliz Avropaya çıxış baxımından da sərfəlidir. Bu yol həm də, yaxın və təhlükəsizdir".

"Yeni yol, eyni zamanda, Rumıniya, Bolqarıstan, eləcə də Türkiyədən keçməklə Avstriya və Londona qədər gedə bilər. Bu, həm də, 14-cü dəhliz ola bilər", - deyə C.Qurbanov vurğulayıb.

*Xətayi Əzizov*

# "KÜLƏK ƏSDİRSƏN, FIRTINADA BOĞULARSAN!"




***Aprel döyüşlərindən sonra Ermənistan tərəfi və işğalçı hərbi-siyasi rejimin müxtəlif vəzifəli şəxsləri döyüş əməliyyatları başlayarsa, Azərbaycanın mülki obyektlərinə, iqtisadi infrastrukturuna zərbələr endiriləcəyi barədə hədə-qorxu ilə dolu sərsəm açıqlamalarla çıxış edirlər.***

Metsamor Atom Elektrik Stansiyası üzrə mütəxəssisin Ermənistanın "Delovoy Ekspress" saytında yayılan məqaləsi belə açıqlamalara ən tutarlı cavabdır.

AZƏRTAC erməni müəllifin "Külək əsdirsən, fırtınada boğularsan!" adlı həmin məqaləsini oxuculara təqdim edir.

Son zamanlar Ermənistan kütləvi informasiya vasitələrində tez-tez Azərbaycanın infrastruktur obyektlərinə məhvedici zərbənin endirilməsi ilə bağlı əsassız fikirlər səsləndirilir.

"Tərksilah etmək məqsədilə" mülkü obyektlərə zərbələr endirilməsi öz-özlüyündə bir sıra suallar doğurur. Belə zərbə kimi və nəyi "tərksilah" etmək üçün tətbiq olunur? Biz onlara belə zərbəni necə endirməyi planlaşdırırıq? Bu növ zərbələrin endirilməsindən danışarkən hətta deyirik ki, Bakını və Azərbaycan Respublikasının neft-qaz hasilatı rayonlarını və digər iqtisadi obyektlərini də vurmaqla ziyan verə bilərik. Məgər onlar bizim silahlı qüvvələrimizə təhlükədirlər?

Bütün bu suallara sizlər bizim strateqlərdən bəlkə də daha ağlabatan izahatlar ala bilərsiniz. Amma gəlin unutmayaq ki, qarşı tərəf, yəni, Azərbaycan da belə hədələrə, niyyətlərə və hərəkətlərə cavab verəcək.

Eyni zamanda, yaddan çıxarmayaq ki, Azərbaycan ordusunun sərəncamında da məhvetmə qabiliyyətinə malik müasir tipli silah və sistemlər var və onların köməyi ilə qarşı tərəf Ermənistan ərazisindəki obyektlərə, həmçinin Metsamor AES-ə zərbələr endirə bilər.

Sadə və təcrübəsiz oxuculara ilk növbədə, izah edilməlidir ki, atom elektrik stansiyaları nədir və onların qeyri-peşəkar istismarı hansı fəlakətlərə gətirib çıxara bilər? AES-də atom reaktorunda əldə edilən istilik fırlanan turbogeneratorların hərəkəti üçün su buxarının alınmasına sərf edilir. Bu tip stansiyalarda qəzaların səbəbləri müxtəlifdir: operativ personal (əməliyyat heyəti) tərəfindən texnoloji intizamın pozulması, onların peşəkarlığındakı nöqsanlar, yəni, "insan amili".

Biz köhnəlmiş atom bloklarının istismarının ətraf mühit və qonşu ölkələr üçün riskli olduğu barədə dəfələrlə məsələ qaldırmışıq. Bu yazıda bir daha bunu yada salmağa ehtiyac yoxdur. Amma AES-də baş verən qəzadan sonra nələr olduğunu həmişə yadda saxlamalı və bunu unutmamalıyıq.

İnsanlar şüalanma xəstəliyindən ən çox əziyyət çəkirlər. Bu xəstəlik orqanizmə ionlaşdırıcı şüaların mümkün həddi üstələyən miqdarlarda təsiri zamanı yaranır. Oxucuları Çernobıl AES-də baş vermiş qəzanın nəticələrini yada salmağa dəvət edirəm. O zaman Avropanın yarısı radioaktiv şüalanmadan əzab çəkmişdi. Ərazi, su, mühit, flora və faunaya ziyan dəymişdi ki, təbiətin çirklənməsinin nəticələri indiyə qədər də müşahidə olunur.

Akademik təhsilli mütəxəssis kimi ölümcül təhlükə haqqında qısa şəkildə "oxucunu maarifləndirmək"lə bildirmək istəyirəm ki, qəzadan uzaq olsaq belə, hər kəs bu təhlükədən öz "payını" alaraq şüalanmanın təsirinə məruz qalacaq. Bu məsələ barədə mən sizə məlumatlı bir şəxs kimi danışıram.

İonlaşan şüalanma radioaktiv dağılma, nüvə çevrilmələri, zəhərli zərəciklərin maddədə ləngiməsi zamanı yaranır və ion mühiti ilə əlaqəyə girdikdə müxtəlif qütblü ionların yaranmasına səbəb olur.

Xatırladım ki, o dövrdə yerli icra hakimiyyəti orqanları rəhbərlərinin qətiyyətsizliyi və səriştəsizliyi səbəbindən yod profilaktikasının aparılması barədə qərar 1986-cı il mayın 6-da gecikdirilməklə verilmişdi. Nəticədə minlərlə insan qalxanvari vəzinin yüksək dozada (300 ber) şüalanmasına məruz qaldı. Hazırkı dövrdə biz Çernobıl qəzasına bənzər fəlakətin təkrar olunacağından tamamilə sığortalanmamışıq. Elə AES-in ölkəmizdə olması artıq müəyyən zəhərlənmə riski və təhdidi yaradır. Lakin bu gün söhbət ondan gedir ki, əgər biz düşməni onun iri şəhərlərinə, əhalisinin sıx yaşadığı rayonlarına, sənaye obyektlərinə zərbə endirməklə təhdid ediriksə, o da öz növbəsində sakit dayanmayacaq, bu addımları cavabsız qoymayacaq. Məsələn, onlar Ermənistandakı vacib hədəflərə zərbə endirə bilərlər. Belə ki, təkcə Metsamor AES-in vurulması nəticəsi bəlli olmayan qlobal qəzaya gətirib çıxara bilər. 1986-cı ildə Çernobılda nələr baş verdiyini unutmağa haqqımız yoxdur. Mənim və bizim hərbi mütəxəssislərin qiymətləndirmələrinə görə, əgər Metsamor AES vurularsa aşağıdakıların baş verməsi mümkün ola bilər:

- Metsamor AES-in nüvə reaktorunun gücü (815 MVt) Çernobıl AES-in gücündən (3000 MVt) az olmasına baxmayaraq, söhbət 1986-cı ildə baş vermiş qəzaya analoji olan "qlobal qəza"dan gedir. O zaman çirklənmə Ukrayna ilə yanaşı, Belarus, Rusiya, Polşa, Norveç və bir çox digər Avropa ölkələrinə külək vasitəsilə yayılmışdı;
- Metsamor qəzası nəticəsində, heç şübhəsiz, "bulud" nəinki stansiyaya yaxın yaşayış məntəqələrini bürüyəcək, hətta Ermənistanla həmsərhəd olan ölkələrin ərazilərinə də keçəcək.

Heç kimi qorxutmaq istəməzdim. Baş verə biləcək qəza zamanı itkilərin 10 min nəfərədək olacağı barədə ekspertlər tərəfindən fikirlər söylənilir. Onlardan 3,5 min nəfərinin tamamilə məhv olacağı bildirilir.

Bütün bunlardan nəticə çıxararaq bizim böyük strateqlərə bir daha xatırlatmaq istərdim ki, hər hansı bir addımın atılmasını planlaşdırmadan əvvəl mümkün nəticələri, xüsusilə də qarşı tərəfin cavab tədbirlərini dərindən düşünmək lazımdır.

Necə deyərlər, "Külək əsdirsən, fırtınada boğularsan!"

# YÜKLƏRİN AVROPAYA VƏ ƏKS İSTİQAMƏTDƏ DAŞINMASI İŞLƏRİNİ KOORDİNASİYA ETMƏK ÜÇÜN İŞÇİ QRUPU YARADILACAQ



***Azərbaycan, Gürcüstan və İranın dəmir yolları Fars körfəzi regionundan və Hindistandan yüklərin Avropaya və əks istiqamətdə daşınması işlərini koordinasiya etmək üçün işçi qrupu yaradacaq.***

"Azərbaycan Dəmir Yolları" QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, bununla bağlı Gürcüstanın paytaxtı Tbilisi şəhərində "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "Gürcüstan Dəmir Yolu" SC-nin sədri Mamuka Baxtadze və İran Dəmir Yolunun baş direktoru Səid Məhəmmədzadə arasında üçtərəfli görüş zamanı qərar qəbul edilib.

Görüşdə yüklərin (konteyner daşımaları) Fars körfəzi regionundan və Hindistandan (Azərbaycan və Gürcüstandan keçməklə) Avropaya və əks istiqamətdə quru yolla daşımalarının təşkili, Fars körfəzi regionundan və Hindistandan (Azərbaycan və Gürcüstandan keçməklə) Avropaya və əks istiqamətdə Azərbaycan və İran limanlarının vasitəsilə yük daşımalarının (konteyner daşımaları) təşkili, tərəflərin dəmir yollarında yük vaqonlarının təkər arabacıqlarının dəyişdirilərək (1520 millimetr standartlı izdən 1435 millimetr standartlı izə və əksinə keçirilərək) hərəkəti məsələləri müzakirə olunub.

Bildirilib ki, hazırda Fars körfəzi regionundan və Hindistandan Avropaya və əks istiqamətdə böyük həcmdə yüklər dəniz nəqliyyatı ilə daşınır və bu da 30-40 günə başa gəlir. Yüklərin Gürcüstan, Azərbaycan və İran üzərindən yönləndirilməsi daşınma vaxtının azaldılmasını təmin edəcək. Bununla bərabər, marşrut üzrə rəqabətədavamlı tariflərin tətbiqi də vacib amillərdən biridir.

Görüşdə işlərin koordinasiya edilməsi üçün İşçi Qrupunun yaradılması, Poti/Batumi-Astara-Poti/Batumi (perspektivdə Qəzvin-Tehran/Bəndər-Abbas-Qəzvin) marşrutu üzrə konteyner qatarının təşkil edilməsi, marşrutun dəniz hissəsində yükdaşıma qiymətinin optimallaşdırılması üçün dəniz daşımaçılarıyla danışıqların təşkili nəzərdə tutulub.

Müzakirə olunan məsələ ilə bağlı görüşlərin mütəmadi olaraq keçirilməsi qərara alınıb.

Tədbirin sonunda üçtərəfli protokol imzalanıb.

## Bizim müsahibə

# TRASECA NƏQLİYYAT DƏHLİZİ BÖYÜK YÜKDAŞIMA POTENSİALINA MALİKDİR

*Müsahibimiz TRASECA nəqliyyat dəhlizi layihəsinin Hökumətlərarası Komissiyasının Azərbaycan üzrə milli katibi Akif Mustafayevdir.*

**– Akif müəllim, Avropa-Qafqaz-Asiya (TRASECA) beynəlxalq nəqliyyat dəhlizinin fəaliyyətə başlamasından bu günədək görülən işləri necə qiymətləndirirsiniz?**

– 1988-ci ilin sentyabrında Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Bakıda "TRASECA – Tarixi İpək Yolunun bərpası" adında Beynəlxalq konfrans keçirildi. Bu konfransın əsas nəticəsi 12 dövlət və hökumət başçısının "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üçün beynəlxalq nəqliyyat üzrə "Əsas Çoxtərəfli Saziş"-i imzalaması oldu. Sonrakı illərdə İran da Əsas Çoxtərəfli Sazişə qoşuldu. Sazişin imzalanmasından bu günə kimi TRASECA üzrə həm Avropa Komissiyası, həm də sazişə üzv dövlətlər bir çox mühüm layihələr reallaşdırıb. Təkcə TRASECA nəqliyyat dəhlizinin Azərbaycan hissəsində 2000-2012-ci illərdə görülən işlərə nəzər salsaq, bunu deməyə əsasımızın olduğunu görərik. Məsələn, Gürcüstanı Azərbaycanla birləşdirən yeni körpü (Qırmızı körpü- Sınıq Körpü) inşa edilərək istifadəyə verilib. Bakı ilə Böyük-Kəsik dəmiryol stansiyasını birləşdirən 503,0 km uzunluğunda xətt boyu optik telli kabel çəkilib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında konteyner terminalı tikilib və avadanlıqlar quraşdırılıb. Liman, eyni zamanda müasir naviqasiya avadanlığı ilə təchiz olunub. Kür çayı üzərində dəmir yolu körpüsü inşa edilib və s.

Son beş ildə isə Avropa Komissiyası yalnız texniki dəstək verməklə kifayətlənib. İndi əsas işləri dövlətlər öz maliyyəsi ilə həyata keçirirlər. Azərbaycan da dəhlizin inkişafı üçün xeyli regional əhəmiyyətli iş görüb. Bu məqsədlərə son 10 ildə bir neçə milyard dollar həcmində vəsait yönəldib. Məsələn, yeni avtomobil magistralları və körpülər inşa edilib, sıradan çıxmış yollar bərpa olunub, dəmiryolları modernləşdirilib, yeni vaqonlar, elektrovozlar, bərə gəmiləri, tankerlər və quru yük gəmiləri alınaraq istismara verilib.



**– Bəs, gömrük sahəsində görülən işlər?**

– Bu sahədə də irəliləyiş əldə olunub. TRASECA nəqliyyat dəhlizi üzrə sərhəd-buraxılış məntəqələrində "qaynar xətt" lövhələri quraşdırılıb. Ölkə başçısı cənab İlham Əliyevin sərəncamı əsasında sərhəd-gömrük məntəqələrində "bir pəncərə" sisteminin tətbiqinə başlanılıb. Təzə avadanlıqlar alınıb. İndi nəqliyyat vasitələrindəki yükləri yoxlamaq üçün onları boşaltmağa ehtiyac yoxdur. Bu işi xüsusi skanerlər həyata keçirir. İnfrastrukturla yanaşı, xidmətin inkişafı Qərb-Şərq istiqamətində ən qısa olan TRASECA nəqliyyat dəhlizi ilə tranzit daşımaların effektivliyini artırır.

**– Azərbaycanın reallaşdırığı layihələrdən biri və demək olar, ən önəmlisi Bakı-Tibilisi-Qarsdır. Gözləntiləriniz nədən ibarətdir?**

– Bu layihə Azərbaycan və Avropa-Asiya regionu üçün çox vacibdir. Ona görə də ölkəmiz əlindən gələni edir. Zaman-zaman biz tərəfdaş ölkələrə bu layihənin icrası üçün dəstək də göstərmişik. Amma obyektiv və subyektiv səbəblərdən Bakı-Tbilisi-Qarsın istismarı yubanır. Bu dəmiryolu xətti işə düşdükdən sonra, Çin-Qazaxıstan – Xəzər dənizi – Azərbaycan – Gürcüstan – Türkiyə marşurutu ilə əlavə yükləmə-boşaltma əməliyyatları olmadan yükləri birbaşa Avropaya daşımaq mümkün olacaq. Bakı-Tbilisi-Qars magistral dəmiryolu Türkiyə və Avropaya yük və sərnişin daşımaları baxımından əsas rol oynayacaq. TRASECA (Şərq-Qərb) nəqliyyat dəhlizində daşımaların əsas payının dəmir yolunun üzərinə düşməsi tikilməkdə olan və istismara verilməsi yaxın zamanda gözlənilən Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətli olacağını deməyə əsas verir.

**– Yükdaşımaların artmasında Bakı Beynəlxalq Dəniz Ticarət Limanının rolu nədən ibarət olacaq?**

– Bakı Beynəlxalq Dəniz Ticarət Limanı gələcəkdə Böyük İpək Yolunun müasir qapıları rolunu oynayacaq. Liman kompleksinin tikintisinin 400 ha ərazidə və üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulub. Artıq birinci mərhələyə daxil olan liman qurğularından biri olan bərə terminalı istifadəyə verilib. Buradan gəmi-bərələr ilə Qazaxıstanın Aktau və Türkmənistanın Türkmənbaşı limanlarına yüklərin daşınması həyata keçirilir. Yaxın gələcəkdə bu ərazidə azad iqtisadi zonanın yaradılmasını da nəzərə alsaq, limandan istifadə edən daşıyıcıların (operatorların) sayı kəskin artacaq. Ona görə də davam edən tikinti işlərini sürətlə aparmaq lazımdır. Bundan başqa, Ələt limanında daşıyıcıların, o cümlədən sürücülərin tələbatını ödəmək üçün əlavə xidmət sahələrinin yaradılması da mütləqdir. Ən əsası, liman ərazisində yük gətirən sürücülərin qalması üçün hotel və məişət xidməti obyektləri tikilməlidir. Çünki, küləkli və əlverişsiz hava günlərlə davam edə bilər və belə vəziyyətdə daşımalar məcburən dayandırılar.

**– Qonşu ölkələrin infrastruktur olaraq həyata keçirdiyi işlər sizi qane edirmi?**

– Azərbaycanın nümunəsi və TRASECA dəhlizi üzərindən daşımaların həcminin yaxın perspektivdə artması ƏÇS-nın digər üzv dövlətlərin də (xüsusən, Qazaxıstan, Gürcüstan və Türkiyə) infrastrukturun təkmilləşdirilməsi və inkişafı üzrə layihələr həyata keçirilməsini zəruri edir. Fakt odur ki, hazırda Qazaxıstanın Aktau Limanında və Türkmənistanın Türkmənbaşı Limanında bu istiqamətdə genişmiqyaslı tədbirlər görülür. Qazaxıstanda Kurık Dəniz Limanı istifadəyə verilib. Türkmənistanda da müasir dəniz ticarəti limanının inşasına başlanılıb. Təbii ki, bunlar çox vacibdir və sağlam rəqabət üçün şərait yaradır. Rəqabətin mövcud olduğu yerdə isə irəliləyiş əldə etmək daha asandır.

**– Yükdaşımaları artırmaq üçün bütün sahələrdə inkişaf önəmlidir. O cümlədən, dəniz nəqliyyatında. Bu gün Xəzər Dəniz Gəmiçiliyi donanmanın yenilənməsinə xüsusi diqqət yetirir…**

– Dəhlizin rəqabət qabiliyyətinin artırılması üçün dəniz nəqliyyatı donanmasının tərkibinin genişləndirilməsi və müasirləşdirilməsi istiqamətində aparılan işlər göz önündədir. Bu gün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzər dənizində dominant mövqedədir. Onun balansında kifayət qədər bərə və tanker var. Azərbaycanın indi gəmiqayırma zavodu mövcuddur. Bu da o deməkdir ki, bizim donanmamızın zənginliyi ilə bağlı hər hansı problemimiz olmayacaq. Elə üstünlüyümüz də budur. Ümumiyyətlə, Xəzərdə AXDG-nin rolu çox böyükdür. Digər Xəzəryanı ölkələrin belə imkanları yoxdur. Biz indi Qazaxıstanı da, Türkmənistanı da imkanlarımıza görə geridə qoyuruq. Amma bir məsələni xüsusi qeyd etmək istəyirəm ki, adını çəkdiyim ölkələr də yeni tankerlər və bərə gəmiləri almaqda maraqlıdırlar. Digər tərəfdən, Rusiya Xəzərdə daşımaların inkişafıyla bağlı qarşısına strateji hədəf qoyub. Buna görə də rəqabəti nəzərə alıb daha böyük işlər görməliyik.

**– Bəs, bu görülən işlərin nəticəsi statistikalarda özünü necə göstərir?**

– Təbii ki, həyata keçirilən infrastruktur tədbirləri yekunda Qərb-Şərq istiqamətində və xüsusən də Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi ilə yük və sərnişin daşımalarının artmasına xüsusi təsir edir. Rəsmi statistikaya görə, son illər ərzində TRASECA nəqliyyat dəhlizinin Azərbaycan seqmenti ilə ildə orta hesabla 25.0 mln ton , o cümlədən 10, 0 mln ton tranzit yükü və 150 mln sərnişin daşınıb. Qeyd etmək lazımdır ki, son iki ildə dünyada və regionda baş verən iqtisadi böhran səbəbindən bu daşımaların həcmi, xüsusən də tranzit bir qədər azalıb.

***Söhbətləşdi:***
***Rövşən Abdurəhmanov***

# "ZÜLFİ HACIYEV" KRAN GƏMİSİNİN TƏMİRİ VAXTINDA BAŞA ÇATDIRILACAQ










***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasına məxsus "Zülfi Hacıyev" kran gəmisi "Bibiheybət" Gəmi Təmiri Zavodunda tərsanəyə qaldırılıb.***

Hazırda gəminin suüstü hissəsinin rənglənməsi, sol sükan və avar qurğularının yığılması, sağ ballerin yonulması işləri görülür. Gəmi üzrə gövdə-qaynaq işləri isə başa çatmaq üzrədir.

Kran gəmisinin braşpil və arxa şpili, elektrik və avtomatika sahələri də təmir olunacaq. Həmçinin beş ədəd yeni qapı hazırlanacaq.

Təmirçilərin məlumatına görə, gəminin sinxron generatorları söküləb. Hazırda qüsurların aydınlaşdırılması işləri yerinə yetirilir. Baş generatorların texniki vəziyyətinə baxış keçirilib və qənaətbəxş hesab edilib.

Gəminin tərsanədən salınması 10 iyuna planlaşdırılır, tam təmirdən çıxması isə iyunun 25-nə nəzərdə tutulur.

Xatırladaq ki, "Zülfi Hacıyev" kran gəmisinin uzunluğu 98,98, eni 17,43 metrdir. Sürəti 11, 35 uzelə bərabərdir. Kranın yükqaldırma qabiliyyəti 100 tondur.

# "ŞİMAL-CƏNUB BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZİ: AZƏRBAYCAN YOLAYRICINDA"

***İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) araşdırmalar aparan Hindistanın "Global South Development Magazine" nəşrinin tədqiqatçısı Hriday Sarmanın İİTKM-nin strateji təhlil və planlaşdırma meneceri Vüsalə Cəfərova ilə birlikdə hazırladıqları "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi: Azərbaycan yolayrıcında" adlı məqaləsi Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalında dərc edilib.***




Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin PR-meneceri Zənurə Talıbova AZƏRTAC-a bildirib.

Məqalədə qeyd edilir ki, Azərbaycanın bu layihədə iştirakı region üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın coğrafi və potensial tranzit ölkə kimi imkanları nəzərə alınaraq bu istiqamətdə mövcud nəqliyyat infrastrukturunun bərpası, inkişaf etdirilməsi və yeni nəqliyyat infrastrukturu layihələrinin həyata keçirilməsi tədbirlərinə başlanılıb və hazırda da davam etdirilir.

Məqalədə Azərbaycanda logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsinə və bu çərçivədə görülən işlərə xüsusi toxunulub. Bildirilib ki, Şimal-Cənub nəqliyyat dəhlizinin işə salınması İran, Hindistan və Pakistan mallarının Azərbaycan üzərindən bu dəhliz vasitəsilə Avropaya daşınması imkanı yaradacaq. Bu isə öz növbəsində dünyada tərəqqiyə, regional ticarət dövriyyəsinin dəfələrlə artmasına səbəb olacaq.

Xatırladaq ki, Finlandiya, Belçika, İsrail və Hindistanın bir neçə beyin mərkəzlərində araşdırmalar aparan hindistanlı tədqiqatçı Hriday Sarma İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "Qonaq Elmi İşçilərin Mübadiləsi Proqramı" çərçivəsində "Şimal-Cənub Nəqliyyat Dəhlizinin İnkişafı və Azərbaycan" mövzusunda tədqiqat həyata keçirib. O, bu mövzuda bir neçə məqalə hazırlayıb.

İngilis dilində hazırlanmış məqalə ilə aşağıdakı link vasitəsilə tanış olmaq mümkündür:

http://www.azjess.com/en/international-north-south-transportation-corridor-azerbaijan-at-crossroads/

Qeyd edək ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin fəaliyyətinin məqsədləri ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparmaqla, analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzunmüddətli dövr üçün proqnozlar hazırlamaqdan, dövlət orqanlarını və qurumlarını həmin proqnozlarla təmin etməkdən, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan Respublikasının nailiyyətlərinin təbliğini təşkil etməkdən ibarətdir.

# YENİ DEPARTAMENTİN İŞİ ÇOX OLACAQ

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də Layihələrin idarə edilməsi departamenti yaradılıb.***

Yeni struktur Gəmiçiliyin tabeliyində olan qurum və ya onların müvafiq bölmələrinin göstərdiyi gəmi agentliyi, liman, dibdərinləşdirmə, dərinlik ölçmə, dalğıc, ofşor (lövbər əməliyyatı, yedəkləmə, təchizat, kran gəmiləri xidmətləri) və gəmi təmiri xidmətlərinin iqtisadi səmərəliliyinin və effektivliyinin artırılması, onların fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması, kommersiya işinin təkmilləşdirilməsi və əlaqələndirilməsi, yeni layihələrdə iştirak kimi mühüm vəzifələri yerinə yetirəcək.

Departament layihələrdə iştirak üçün zəruri tədbirlərin görülməsi, xidmətlər bazarının öyrənilməsi və təhlili, potensial müştərilərlə danışıqların aparılması, tenderlərdə Cəmiyyətin təmsil olunması kimi funkusiyaları da yerinə yetirəcək. Bundan başqa, layihələr daxilində problemləri müəyyənləşdirəcək və həll edəcək.

Strukturun işi təkcə yerli bazarla məhdudlaşmayacaq. Belə ki, departament BP, SAİPEM, TOTAL, PETRONAS, DRAGON OİL kimi nüfuzlu şirkətlərlə əməkdaşlığı daha da genişləndirəcək. Ən əsası göstərilən xidmətlərin səviyyəsi beynəlxalq standart və tələblərə uyğunlaşdırılaraq artırılacaq. Eyni zamanda, departament kənar təşkilatların gəmilərinin (xarici ölkələrin) AXDG-nin zavodlarında təmirə cəlb olunması işi ilə də məşğul olacaq.

Yeni yaradılmış Layihələrin idarə edilməsi departamentinin rəisi vəzifəsinə bir çox nüfuzlu beynəlxalq şirkətdə logistika və layihələrin idarə edilməsi sahəsində təcrübəyə malik Kərim Sultanov təyin olunub. O, bu təyinatadək "AXDG" QSC-də bir sıra rəhbər vəzifədə çalışıb.

# DƏNİZÇİLƏR KÖNÜLLÜ QAN VERİBLƏR









***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində qanvermə aksiyası keçirilib. Mayın 26-da Xəzər Dəniz Neft Donanmasının və İstehsalat Xidmətləri İdarəsinin akt zallarında baş tutan bu nəcib tədbirdə Gəmiçiliyin əməkdaşları həvəslə iştirak ediblər. Toplanan donor qanları isə Səhiyyə Nazirliyinin Mərkəzi Qan Bankına təhvil verilib.***

Xatırladaq ki, sözügedən sosial təşəbbüs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi "Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı" Dövlət Proqramı və Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində keçirilən tədbirlərə dəstək niyyəti daşıyır.

Əsas məqsəd korporativ donorluq ideyalarını geniş təbliğ etmək, təmənnasız qanvermə aksiyalarına marağı artırmaq və bununla da talassemiyalı xəstələrin lazımi miqdarda qan ilə təmini istiqamətində Mərkəzi Qan Bankına köməklik göstərməkdən ibarətdir.

# "BAKI LİMANINDA DAŞIMALARLA BAĞLI GÜNÜN TƏLƏBLƏRİNƏ CAVAB VERƏN XİDMƏTLƏR GÖSTƏRİLİR"

***Ələt qəsəbəsində yaradılan Azad Ticarət Zonası Bakı Beynəlxalq Dəniz Ticarət Limanını Türkiyə üçün daha cəlbedici edəcək.***

Bu sözləri iyunun 5-də Türkiyənin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə tanışlıq zamanı bildirib.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov Bakı Limanında yaradılan şərait və Azad Ticarət Zonası ilə bağlı səfirə məlumat verib. Həmçinin TIR sürücüləri ilə söhbət zamanı sürücülər onlar üçün hər cür şərait yaradıldığını deyib, Bakı Limanında göstərilən xidmətlərin keyfiyyətindən razı qaldıqlarını söyləyiblər.

Səfir Erkan Özoral bildirib ki, Bakı Limanında daşımalarla bağlı günün tələblərinə cavab verən xidmətlər göstərilir. Buna TIR sürücüləri ilə söhbət zamanı da şahid olub.

"Bakı Limanı Türkiyə ilə Asiyanı birləşdirən bir qapıdır. Burada vacib layihələrdən biri olan Azad Ticarət Zonası yaradılır. Bu layihə Azərbaycanın iqtisadiyyatına mühüm töhfə verəcək, Bakı Limanını Türkiyə və digər ölkələr üçün daha cəlbedici edəcək. Həmçinin, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi işə düşdükdən sonra Bakı Limanının əhəmiyyəti daha da artacaq", - deyə səfir vurğulayıb.

# UŞAQLARI BAYRAM HƏDİYYƏLƏRİ İLƏ SEVİNDİRMƏYİ DƏ UNUTMAYIBLAR






***Səbail Rayon İcra Hakimiyyəti "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilə birgə 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibəti ilə "Yaxt-klub"da bayram tədbiri keçirib. Tədbirdə idmançılar, sağlamlıq imkanları məhdud, icma əsaslı reabilitasiya mərkəzində xidmət göstərilən, ayrı-ayrı uşaq evlərində tərbiyə alan, 219 saylı məktəbdə oxuyan uşaqlar və rayonun aztəminatlı ailələrinin balacaları iştirak ediblər.***

Səbail Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Xalidə Bayramova uşaqları təbrik edib, onlara cansağlığı, xoşbəxt həyat arzulayıb. Azərbaycanda uşaqlara göstərilən hərtərəfli qayğıdan danışan Xalidə Bayramova ölkədə uşaq siyasətinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib: "Azərbaycan körpələri hər il Heydər Əliyevlə keçirilən görüşlərdən sonsuz coşqu və böyük ilham alırdılar. Uzaqgörən siyasi liderin yaratdığı və nəsillər üçün miras qoyduğu ənənələri bu gün cənab Prezident İlham Əliyev uğurla davam etdirir. Ölkə başçısının uşaq hüquqlarının müdafiəsi sahəsində atdığı addımlar bu ənənələrin hələ uzun illər yaşayacağına və Azərbaycan uşaqlarının taleyində əhəmiyyətli rol oynayacağına zəmanət verir".

Sonra "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC sədrinin müavini Cəbrayıl Mahmudlu çıxış edib. O bildirib ki, bu gün dövlətimiz hər bir uşağın firavanlığına, təhsilinin, sağlamlığının artırılmasına çalışır. Əsas məqsəd onların yüksək sosial-mənəvi mühitdə böyüməsinə nail olmaqdır.

Cəbrayıl Mahmudlu sağlamlığı məhdud uşaqlara olan diqqətdən də söz açıb. Bu sahədə son dövrlər atılan addımların əhəmiyyətini vurğulayıb.

Tədbirdə Heydər Əliyev Fondunun Azərbaycanın gələcəyi olan uşaqlar üçün həyata keçirdiyi layihələrdən də danışılıb. Bildirilib ki, fond tərəfindən son illər respublikamızın müxtəlif bölgələrində yüzlərlə müasir məktəb binası tikilərək istifadəyə verilib. Bununla yanaşı, yeni körpələr evi, bağça və internat məktəbi inşa olunub.

Bayram tədbiri tanınmış incəsənət xadimləri və məzhəkəçilərin maraqlı çıxışları ilə davam edib. Uşaqlar üçün müxtəlif əyləncəli yarışlar təşkil olunub. Təşkilatçılar uşaqları bayram hədiyyələri ilə sevindirməyi də unutmayıblar.

# GƏMİÇİLİKDƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ İLƏ BAĞLI YENİ QAYDALAR TƏTBİQ OLUNACAQ

***"AXDG" QSC-nin KSƏTƏMM strukturunun məqsədi ümumilikdə dənizdə təhlükəsiz iş təcrübələrindən bəhrələnərək, personalın sağlamlığını, ətraf mühitin mühafizəsini təmin etmək, sahil və dənizdə çalışan işçilərin təcrübə, səriştə və bacarıqlarını daim inkişaf etdirməklə İSO 9001 / 14001 /50001 və OHSAS 18001 beynəlxalq menecment standartlarının (BMS) tələblərinə cavab verən "AXDG" QSC-nin "Təhlükəsizliyin Keyfiyyətli İdarəedilməsi Sistemi"nin (TKİS) əsasən dəniz, habelə bəzi sahil obyektlərində yüksək səviyyədə tətbiqi və işləməsinə nail olmaqdır.***






Cəmiyyətdə bu yönümdə işlərin yerinə yetirilməsində əsas icraçı qurum sayılan Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi departamentinin (KSƏTƏMMD) prioritet saydığı istiqamətlərdən biri də gəmilərdə formalaşıb yaranan, habelə daşınan müxtəlif aqreqat hallı, o cümlədən maye çirkləndiricilərin idarə olunmasını təmin etməklə, onların dənizə atılmasının qarşısını almaq və ya atqıların həcmini minimuma endirməkdir.

Hazırda gəmilərdə maye tullantıların xüsusi çənlərdə toplanması, saxlanması, təhvil verilməsi, bununla bağlı plomblama işinin icrası, habelə həmin əməliyyatların sənədləşdirilməsi və qeydiyyatı kimi müxtəlif tədbirlər həyata keçirilir.

Həmin tədbirlərin hər biri önəmli səciyyə daşısa da müxtəlif maye çirkləndiricilərin atqı nöqtələrinin plomblanmalarının icra keyfiyyətinin müasir reallıq və imkanlar nəzərə alınmaqla yüksəldilməsi KSƏTƏMMD-nin həll etməyə çalışdığı ümdə məsələlərdən biridir. Bu məqsədlə yeni prosedur qaydaları hazırlanıb.

"AXDG" QSC-nin hazırkı prosedur və qaydaları işləyib tərtib etməkdə əsas məqsədi Cəmiyyətin gəmilərindəki maye çirkləndiricilərin atqı nöqtələrinin plomblanması, sənədləşdirilməsi, qeydiyyatı və nəzarət əməliyyatlarını təkmilləşdirmək və müasirləşdirməklə dənizin gəmilərdən maye tullantılarla çirklənməsi imkanlarının minimuma endirilməsinə nail olmaqdır.

KSƏTƏMMD tərəfindən Cəmiyyətin TKİS-nin tərkib hissəsi olan "Sağlamlıq, əməyin təhlükəsizliyi, ətraf mühitin mühafizəsi. Təhlükəsiz iş təcrübələri" çərçivəsində " "Maye çirkləndiricilərin gəmilərdən dənizə axıdılmasına yol verməmək üçün müvafiq atqı nöqtələrində plomblanma, plombqırma və nəzarət Qaydaları" (Plombqırma / Plomblama Qaydaları) tərtib olunub və təsdiq edilmişdir.

Hazırda Cəmiyyətin gəmilərində yeni "Plombqırma / Plomblama Qaydaları"nın tətbiqinə hazırlıq işləri gedir. Bunlardan da ən önəmlisi ilk növbədə Donanmaların rəhbərlikləri ilə, növbəti mərhələdə isə XDND və DND gəmilərinin rəhbər heyət üzvləri ilə aidiyyəti təlimlərin keçirilməsidir.

Elə bu məqsədlə Cəmiyyətin KSƏTƏMM xidməti bu yönümdə işlərə başlamışdır. Beləki, Xəzər Dəniz Neft Donanması və Dəniz Nəqliyyatı Donanmasının rəhbərlərinin və aidiyyəti məsul işçilərinin iştirakı ilə "Plombqırma / Plomblama Qaydaları" mövzusunda məlumatlandırma səciyyəli təlimlər keçirilib.

Donanmaların Əməyin mühafizəsi, təhlükəsizlik texnikası və ekologiya şöbələrinin (ƏMTTEŞ) tərtib etdikləri "Plan-qrafik"lər əsasında XDND və DND gəmilərinin rəhbər heyət üzvləri ilə mərhələlər üzrə "Plombqırma / Plomblama Qaydaları" təlimlərinin keçirilməsinə də başlanmışdır.

Müvafiq yönümlü digər təlim isə Dəniz Nəqliyyat Donanmasının gəmilərinin sahildə olan rəhbər heyət üzvləri ilə keçirilib. Təlimdə 60 nəfərdən artıq dənizçi iştirak edib.

Toplantını giriş sözü ilə DND ƏMTTEŞ-nin rəisi Ağalar Behbudov açmış, KSƏTƏMMD-nin Ətraf mühitin mühafizəsi mühəndisi Sabir Kərimzadə keçirilən təlimin məqsədi, yeni plomblama prosedurlarının işlənməsinin səbəbləri və hədəflər barədə məlumat vermişdir. Əsas məruzəçi DND ƏMTTEŞ-nin mühəndis ekoloqu Abbas Məmmədov çıxışında təzə "Plombqırma/Plomblama Qaydaları"nın hazırlıq və icra proseduru, müvafiq qeydiyyat və sənədləşmənin aparılması, saxlanması və təqdimatı, icraya nəzarət, tətbiq olunacaq yeni plombların səciyyəvi xüsusiyyətləri barədə məlumatları hazırda istifadə olunan köhnə plomblama qaydaları ilə müqayisəli şəkildə təlim iştirakçılarının diqqətinə çatdırıb.

Toplantıda təlim iştirakçılarının bütün sualları ətraflı cavablandırılıb.

Qeyd edək ki, müvafiq məqsədli təlimlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulub.



## TƏDBİR KÖRPƏLƏRİN ÜRƏYİNCƏ OLUB

***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ənənəsinə sadiq qalaraq bu il də Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə balacalar üçün silsilə bayram tədbirləri təşkil edib. İyunun 1-də keçirilən belə tədbirlərdən birinə 50-dən çox uşaq qatılıb.***

İncəsənət ustalarının iştirakı ilə keçirilən müxtəlif oyunlar, musiqili-əyləncəli proqramlar və müsabiqələr körpələrin ürəyincə olub. Üstəlik uşaqlara həm də bayram hədiyyələri verilib.

Uşaqlar ailənin sevinci, cəmiyyətin bəzəyidir. Üzünüzdən təbəssüm əskik olmasın, əziz balalar!



# TRANSXƏZƏR NƏQLİYYAT MARŞRUTU ÇƏRÇİVƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİNİ MÜZAKİRƏ EDİBLƏR

***Polşa Respublikasının paytaxtı Varşava şəhərində Azərbaycan və Polşa dəmir yolları rəhbərləri arasında ikitərəfli görüş keçirilib.***

"Azərbaycan Dəmir Yolları" QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Polşa Dövlət Dəmir Yolu (PKP) İdarə Heyətinin sədri Kşiştof Maminski beynəlxalq və regional layihələrin reallaşması prosesində, xüsusilə də Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM) fəaliyyətinin artırılması istiqamətində Azərbaycanın gördüyü işləri, Azərbaycan və Polşa dəmir yolları arasında əməkdaşlığın genişləndirilməsini yüksək qiymətləndirib.



"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov bildirib ki, Azərbaycan dəmir yolunda son illər əsaslı islahatlar həyata keçirilir, ölkənin tranzit potensialının artırılması istiqamətində mühüm addımlar atılır.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun fəaliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərdən danışan C.Qurbanov bildirib ki, bu marşrut Çindən Türkiyəyə və eləcə də Avropaya, həmçinin əks istiqamətdə yük daşımalarının artırılmasına xidmət edir. Sözügedən marşrut üzrə ilk sınaq konteyner qatarı 2015-ci ildə fəaliyyətə başlayıb. Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə yaranan marşruta sonra Ukrayna da qoşulub. Yaxın gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi ilə konteyner qatarlarının Çindən birbaşa Avropaya və Aralıq dənizinə getməsi mümkün olacaq. 2016-cı ilin dekabr ayında TBNM-nin İnkişaf üzrə Əlaqələndirmə Komitəsi "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" adlı Beynəlxalq Assosiasiya yaradıb və bu qurumun qərargahı Astanada yerləşir.

Görüşdə hər iki dəmir yolu arasında əlaqələrin gələcək inkişaf perspektivləri, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu çərçivəsində əməkdaşlıq, logistik problemlərin həllində dəmir yolu administrasiyalarının birgə səyi və digər məsələlər barədə müzakirələr aparılıb.

Müzakirələrdə dövlətlərin strateji baxımdan əlverişli ərazidə yerləşdiyi vurğulanaraq, dəmir yolları sahəsində strateji əməkdaşlığı dəstəkləməkdə, təşviq və inkişaf etdirməkdə maraqlı olduqları, qarşılıqlı müzakirələrin intensivləşdirilməsi və gələcəkdə bu sahədə əməkdaşlıqdan yarana biləcək qarşılıqlı faydalar üçün potensialı araşdırmaq arzuları ifadə olunub. Eyni zamanda, Hindistan – Fars Körfəzi – İran – Azərbaycan – Gürcüstan – Ukrayna – Avropa istiqaməti üzrə daşımaların optimallaşdırılmasına və həmçinin tərəflərin tranzit potensialının artırılmasına xidmət edəcək Cənub-Qərb marşrutunun inkişaf etdirilməsi sahəsində əlaqələrin qurulması və gücləndirilməsi, Azərbaycan və Polşa arasında ikitərəfli iqtisadi əlaqələrin səmərəliliyini təşviq edərək, dəmir yolu daşımalarında strateji əməkdaşlığın parametrlərini və əsaslarını müəyyən etməyin vacib olduğu vurğulanıb.

Görüşdə ikitərəfli əməkdaşlığın bundan sonra daha da genişləndirilməsinin vacibliyi vurğulanaraq, iyunun 18-19-da Bakı şəhərində Azərbaycan, İran, Gürcüstan, Polşa və Ukrayna dəmir yolları rəhbərlərinin görüşünün keçirilməsi dəstəklənib.

## ÖZBƏKİSTANA TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZİNİN ÜZVÜ OLMAQ TƏKLİF EDİLİB

***Daşkənddə Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi (TBND) və Qazaxıstanın dəniz limanları" adlı "dəyirmi masa" keçirilib.***

Tədbirdə dəhlizin önəmi haqqında ətraflı söhbət açılıb. Vurğulanıb ki, Çinlə Avropa arasında etibarlı dəhliz olan bu marşrut üzv dövlətlərin hamısı üçün böyük əhəmiyyətə malikdir.

"Dəyirmi masa"da Özbəkistana Nəqliyyat dəhlizinin üzvü olmaq təklif edilib.

Bildirilib ki, dəhlizin logistik infrastrukturu 10 min kilometr dəmiryol şəbəkəsini, 10 dəniz limanını özündə birləşdirir.

Çin, Azərbaycan, Qazaxıstan, Gürcüstan, Türkiyə, Ukrayna və Rumıniya TBND-nin üzvləridir.

Xatırladaq ki, 2016-cı ilin dekabr ayında TBND-nin İnkişaf üzrə Əlaqələndirmə Komitəsi "Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi" adlı Assosiasiya yaradıb və bu qurumun qərargahı Astanada yerləşir.

***Qulu Kəngərli***

## ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLİB



***Aşqabad şəhərində Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın razılaşdırılması üzrə Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupun 49-cu iclası çərçivəsində Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov arasında görüş keçirilib.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iqtisadi, ticari, o cümlədən enerji və nəqliyyat sahələrində ikitərəfli əməkdaşlığın inkişafı perspektivləri müzakirə edilib və iki ölkənin bu əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensiala malik olduğu vurğulanıb.

Tərəflər iki ölkənin dövlət başçıları və xalqları arasında mövcud olan dostluq münasibətlərinin əməkdaşlığın inkişafında mühüm amil olduğunu xüsusi vurğulayıblar. Ölkələrimiz arasında mehriban qonşuluq ruhunda keçən görüşdə Xəzər dənizi məsələləri üzrə ikitərəfli formatda məsləhətləşmələrin aparılmasının vacibliyi vurğulanıb.

İkitərəfli əməkdaşlığın inkişafı kontekstində xarici işlər nazirləri arasında siyasi məsləhətləşmələrin mütəmadi əsasda keçirilməsi qeyd olunub.

Həmçinin qarşılıqlı maraq kəsb edən regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb və iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində irəli sürdükləri təşəbbüslərə qarşılıqlı dəstəyin göstərildiyi məmnunluqla bildirilib.

# LİMANIN İKİNCİ MƏRHƏLƏSİ İYUNDA İSTİFADƏYƏ VERİLƏCƏK




***SOCAR-ın sərmayə qoyduğu "Petlim Limancılık Ticaret A.Ş." şirkətinin 1,5 milyon TEU konteyner saxlama gücünə malik terminalının ikinci mərhələsi bu ilin iyununda istifadəyə veriləcək.***

Bunu "SOCAR Turkey Enerji A.Ş."nin (STEAŞ) baş direktoru Zaur Qəhrəmanov deyib. O qeyd edib ki, konteyner limanının birinci fazası artıq bitib. Hazırda 7-9 min konteyner yeri olan gəmilər limana yan alır. Limanın ikinci mərhələsi isə iyun ayında yekunlaşacaq və "Petlim" həmin regionun ən böyük limanı olacaq. Bundan sonra isə liman 18 min konteyner yeri olan gəmiləri qəbul edəcək.

Qeyd edək ki, İzmirin Əliağa rayonundakı liman iki mərhələdən ibarətdir və 380 milyon dollara başa gələcək. "Petlim" Egey dənizi hövzəsində ən iritutumlu limandır. Bu, hər konteynerə görə 200-250 dollar əlverişli xərci təmin edir. Birinci mərhələ üzrə həftənin 5 günü xidmət göstərilir.

SOCAR-ın Türkiyədəki ən böyük aktivi və səhmlərinin təxminən 53 faizi STEAŞ-a məxsus olan "Petkim PetroKimya Holding A.Ş."nin törəmə şirkəti "Petlim Limancılık Ticaret A.Ş." öz səhmlərinin 30 faizini 300 milyon dollara "Goldman Sachs" şirkətinə satıb. Hazırda limanın 70 faizlik hissəsi SOCAR-a, 30 faizlik hissəsi isə "Goldman Sachs"a aiddir. "Petlim"i ilk 28 il müddətində Hollandiyanın "APM Terminals" şirkəti idarə edəcək.



## DƏNİZ NƏQLİYYATI İLƏ DAŞINAN YÜKLƏRİN HƏCMİ 52,6 FAİZ ARTIB

***Dəniz nəqliyyatı ilə 2017-ci ilin yanvar-aprel ayında daşınmış yüklərin həcmi 2528,9 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 52,6 faiz artıb. Yüklərin 48,4 faizini neft yükləri təşkil edib.***

Dəniz limanlarında 3517,4 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib. Yüklərin 3366,2 min tonunu və ya 95,7 faizini tranzit yüklər təşkil edib. 2017-ci il may ayının 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 94,4 min ton idxal yükləri olub.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 21,6 faiz artaraq 6,2 min nəfər olub.



# AXDG-NİN 160 İLLİYİ QARŞISINDA

## "UNUTSAQ, UNUDULARIQ"



### Daim öz üzərində çalışan kapitan

***Abdulmanaf Mahmud oğlu 1925-ci il iyunun 30-da Bakı şəhərində anadan olub.***

Dəvəçi rayonunun Uzunboyat kəndindən olan atası Mahmud Manafov inqilabdan əvvəl sadə kəndli həyatı yaşayıb. 1924-cü ildə ailəsi ilə Bakıya köçüb. 1937-ci ildə 52 yaşında dünyasını dəyişdikdən sonra ömür-gün yoldaşı Gülbahar xanım övladlarını dolandırmaq üçün Bakıdakı "Qalibiyyət" adlı xalça artelində işə düzəlib.

Abdulmanaf 1942-ci ildə 9 sinifik orta ümumtəhsil məktəbini başa vuran kimi Bakı dənizçilik məktəbinə daxil olub və 1945-ci ildə bu təhsil ocağını "uzaq səfərlər üzrə gəmi sürücüsü" ixtisası ilə bitirib. Həmin ildən də "Xəzərtanker" gəmiçiliyinin gəmilərində üzməyə başlayıb. Əməksevərliyi, intizamı, əzmkarlığı ilə seçilən Abdulmanaf 1947-ci ildən kapitanın 3-cü köməkçisi, 1949-cu ildən 2-ci köməkçisi, 1951-ci ildən isə kapitanın baş köməkçisi işləyib.

Daim öz üzərində çalışan, gəmini "beş barmağı" kimi öyrənən Abdulmanaf 1953-cü ildən işlədiyi tankerdə kapitanı əvəz edib. 1958-ci ildə - 33 yaşında isə artıq kapitan təyin edilib.

Abdulmanaf Mahmud oğlu həmişə heyəti qarşıda duran vəzifələrə səfərbər etməyi bacarıb, plan və öhdəliklərin artıqlaması ilə yerinə yetirilməsinə nail olub. Bununla kifayətlənməyən kapitan bilik və təcrübəsini gənclərə həvəslə öyrədib, heyət üzvlərini işə yaradıcılıqla yanaşmağı söv̈q edib. Məsələn, təkcə 1979-cu ildə kapitanı olduğu "Nikifor Roqov" tankerində 19 səmərələşdirici təklif verilmişdi ki, onlardan da 17-si istehsalatda tətbiq edilmişdi.

Xəzər Dəniz Gəmiçiliyi üçün sifariş edilən yeni iritonnajlı tankerlərin ilki – "Nikifor Roqov" gəmisinin sükanı da təcrübəli, tələbkar olduğu qədər də qayğıkeş kapitan Abdulmanaf Mahmud oğluna məhz əsl dənizçi keyfiyyətlərinə görə etibar edilib.

Abdulmanaf Mahmud oğlunun əməyi yüksək qiymətləndirilib. 1966-cı ildə Lenin ordeni ilə təltif olunub. "Rəşadətli əməyə görə" medalına, "Dəniz Donanmasının Fəxri işçisi" (1976-cı il) adına layiq görülüb. "25 il qəzasız işə görə" döş nişanı ilə təltif edilib, "Dəniz Donanması Nazirliyinin ən yaxşı kapitanı" və "Xəzər Dəniz Gəmiçiliyinin ən yaxşı kapitanı" adlarına layiq görülüb.

Kapitan Abdulmanaf Mahmud oğlu 1988-ci il fevralın 6-da haqq dünyasına qovuşub.

### Uzaq səfərlər kapitanı həm də böyük ürək sahibi idi

***Uzaq səfərlər kapitanı Cabir Məmmədtağı oğlu Məmmədov 1927-ci il mayın 12-də Bakıda anadan olub.***

Atası cəbhəyə gedəndən sonra ailənin böyük oğlu Cabir gəmi təmiri zavodunda tornaçı kimi işə düzəlib. Lakin uşaqlıqdan kapitan olmaq arzusu onu zavodda qərar tutmağa qoymayıb. On beş yaşlı Cabir Böyük Vətən müharibəsinin qızğın çağında - 1942-ci ildə "Spartak" gəmisinin göyərtəsinə matros kimi qalxıb və taleyini həmişəlik Xəzər Dəniz Gəmiçiliyi ilə bağlayıb.

Hətta dinc dövrdə asan keçməyən dənizçi həyatının müharibə illərində daha da ağırlaşmasına baxmayaraq, gənc Cabir kapitan olmaq arzusundan dönməyib, hər çətinliyə qatlaşıb, təcrübəli dənizçilərdən daha çox öyrənməyə çalışıb, tapşırıqları səylə yerinə yetirib, öz əməksevərliyi və istiqanlığı ilə heyət üzvlərinin sevimlisinə çevrilib.

Müharibədən sonrakı dövrdə - 1946-1948-ci illərdə Cabir Məmmədtağı oğlu kapitanın üçüncü, ikinci köməkçisi üzüb. 1952-ci ildə Bakı dəniz yolları məktəbini bitirdikdən sonra xaricə üzən "İrtış" gəmisinə kapitanın böyük köməkçisi göndərilib. 1964-cü ildən isə uzaq səfərlər kapitanı kimi səfər xəritəsinə İran, İtaliya, Fransa, Türkiyə və Ərəb ölkələrinin limanlarının adını yazıb.

Cabir Məmmədov mahir gəmi sürücüsü, nüfuzlu rəhbər, bacarıqlı təşkilatçı kimi tanınmışdı. Rəhbərlik etdiyi heyət ən mühüm tapşırıqların öhdəsindən layiqincə gəlirdi. Dərin biliyi, zəngin təcrübəsi, işgüzarlığı və insanlarla tez ünsiyyət qurmaq bacarığı ona Xəzər Dəniz Gəmiçiliyinin İranda Baş Dəniz Agentliyinin rəisi, Xəzər Dəniz Gəmiçiliyi rəisinin köməkçisi işləyəndə də böyük hörmət, səmimi rəğbət qazandırmışdı.

Cabir Məmmədtağı oğlu həm də kapitan kimi də tanınmışdı. Sənətinin sirlərini öyrətdiyi yetirmələri – 17 uzaq səfərlər kapitanı ilə haqlı olaraq fəxr edirdi.

"Dəniz Donanmasının Fəxri işçisi"nin əməyi yüksək dəyərləndirilmişdi. Xəzərin veteranının sinəsini Lenin ordeni, "Rəşadətli əməyə görə" medalı bəzəyirdi.

Böyük ürək sahibi, səmimi insan Cabir Məmmədtağı oğlu Məmmədov 1998-ci ildə yetmiş bir yaşında haqq dünyasına qovuşub.



***Sevda Abdullayeva,***
***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin İctimaiyyətlə əlaqələr üzrə mütəxəssisi***

# XƏZƏR DƏNİZİ SAHİLİNDƏ MONİTORİNQ APARILIB

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub sahil zolağında, çimərlik zonalarında və mühüm rekreasiya əhəmiyyətli qumsallıqlarda mütəmadi olaraq ekoloji vəziyyətin monitorinqini həyata keçirir.***

Azərbaycan Xəzəryanı dövlətlər arasında yeganə ölkədir ki, dənizin və onun akvatoriyasının çirklənmədən qorunması üzrə kompleks tədbirlər görür.



Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış 2007–ci il 20 iyun tarixli 2244 nömrəli "Xəzər dənizinin çirklənmədən qorunması üzrə bəzi tədbirlər haqqında" Sərəncama əsasən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) tərəfindən Abşeron yarımadasının kanalizasiya şəbəkəsi olmayan Bilgəh, Buzovna, Mərdəkan, Pirşağı qəsəbələrinin sahil zolağında və "Amburan" çimərliyi ərazisində, eləcə də Novxanı və Corat bağlarının sahil boyu ərazilərində beynəlxalq standartlara cavab verən 17 ədəd modul tipli çirkab sutəmizləyici qurğu quraşdırılıb.

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, modul tipli çirkab sutəmizləyici qurğuların quraşdırıldığı ərazilərdə aparılan monitorinqin nəticələrinə görə, 2007-ci illə müqayisədə mikrobioloji baxımdan çirklənmənin qarşısı alınıb. Artıq Abşeron yarımadasının şimal zonasındakı ərazilərdən dənizə axıdılan tullantı suları idarə olunur. Belə ki, təmizləyici qurğuların istismarı müddətində dənizdə mikrobioloji baxımdan çirklənmənin dərəcəsi tədricən azalmağa başlayıb, son 10 il ərzində həmin sahələrdə bağırsaq çöplərinin və şərti patogen bakteriya olan Escherichia coli-nin (E.coli) miqdarı minimum həddə çatıb. Aparılan tədqiqatların nəticələrinə görə, həmin çimərlik ərazilərində çirklənmə dərəcəsi normada daxilindədir.

Lakin sutəmizləyici qurğuların quraşdırılmadığı Sumqayıt, Səbail rayonunun Şıx və Qaradağ rayonunun Sahil qəsəbəsinin çimərlik əraziləri kimi məntəqələrdə ötən il olduğu kimi cari ildə də mikrobioloji baxımdan çirklənmə qeydə alınıb. Həmin ərazilərdə böyük həcmlə axıdılan tullantı suları müvafiq norma və standartlara uyğun təmizlənmədən və zərərsizləşdirilmədən dənizə axıdıldığına görə sözügedən ərazilərdə bağırsaq çöpü bakteriyalarının və şərti patogen E.coli-nin miqdarı normadan artıq müəyyən olunub.

Abşeron yarımadasının sahil zolağında modul tipli sutəmizləyici qurğular quraşdırılmadan əvvəl dənizdən götürülən su nümunələri üzərində aparılmış təhlillər zamanı mikrobioloji baxımdan bağırsaq çöpü bakteriyalarının və şərti patogen E.coli-nin miqdarı normadan dəfələrlə artıq təyin edilib. Lakin ETSN tərəfindən modul tipli təmizləyici qurğular quraşdırıldıqdan sonra həmin ərazilərdə mütəmadi keçirilən monitorinqlər nəticəsində çirklilik dərəcəsinin tədricən azalması qeydə alınıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən birgə keçirilən monitorinq zamanı dənizdən götürülən su nümunələri üzərində aparılan laborator təhlillərin nəticələri qeyd olunan sahələrdə bağırsaq çöplərinin və şərti patogen E.coli-nin miqdarının minimum həddə çatmasını təsdiq edir. Beləliklə, son on il ərzində həmin sahələrdə bağırsaq çöplərinin miqdarı norma həddinə çatıb.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən modul tipli təmizləyici qurğular quraşdırılmış qəsəbələrin sahil zolağında aparılan son tədqiqatların nəticələri bunu deməyə əsas verir ki, həmin qəsəbələrin sahil zolağındakı çimərlik sahələri (Sumqayıt, Qaradağ rayonu Sahil qəsəbəsinin "Sahil" və Səbail rayonunun "Şıx" çimərliklərindən başqa) yay mövsümü ilə əlaqədar çimərlik kimi istifadəyə yararlıdır.

# "XƏZƏR KUBOKU"NDA İŞTİRAK EDƏCƏK XƏZƏR FLOTİLİYASININ HAZIRLIQ SƏVİYYƏSİ YOXLANILIB



***Rusiyanın müdafiə naziri Sergey Şoyqu ölkənin Hərbi Dəniz Qüvvələrinin Xəzər Dəniz Flotiliyasının hazırlıq səviyyəsini yoxlamaq üçün Həştərxanda olub.***

Rusiyanın Xəzər Dəniz Flotiliyasının gəmiləri bu ilin yayında Azərbaycanın ərazi sularında keçiriləcək "Xəzər Kuboku" beynəlxalq hərbi-dəniz müsabiqəsində iştirak edəcəklər.

Nazir S.Şoyquya məlumat verilib ki, Xəzər Dəniz Flotiliyası 2020-ci ilədək 76 faiz yeni silah və döyüş texnikası ilə təchiz olunacaq. Hazırda flotiliyanın yenidən qurulması və infrastrukturunun inşası prosesi gedir.

S.Şoyqu flotiliyanın hərbi hissələrinin və birləşmələrinin hazırlıq vəziyyətini də yoxlayıb.

***Fəridə Abdullayeva***

# İNSANLAR TƏBİƏTƏ OLAN MÜNASİBƏTLƏRİNİ DƏYİŞMƏLİDİRLƏR

***XIX əsrin sonlarından başlayan elmi-texniki tərəqqi, sənayenin sürətli inkişafı nəticəsində ətraf mühitə edilən təsirlər XX əsrin ortalarında öz mənfi nəticələrini büruzə verməyə başlayıb. Artıq insanlar təbiətə olan münasibətlərini dəyişməyəcəkləri, onun ehtiyatlarından səmərəsiz istifadəyə son qoymayacaqları təqdirdə bu prosesin onların özlərinə qarşı çevriləcəyini və arzuolunmaz nəticələrə gətirib çıxaracağını anlayıblar.***



Bu problemin gələcəkdə qlobal katakizmlərə səbəb olacağını başa düşən alimlər, ekoloqlar öz etiraz səslərini ucaltmağa, həyəcan təbili çalmağa başlayıblar.

Problemin ciddiliyini dərk edən beynəlxalq təşkilatlar, tərəqqipərvər dünya ictimaiyyəti məsələni daim diqqət mərkəzində saxlamağa çalışıb.

1972-ci il 5 iyunda Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının İsveçin paytaxtı Stokholm şəhərində keçirilən iclasında da ətraf mühitin mühafizəsi məsələsi diqqət mərkəzində olub. Problemin kəskinliyini, əhali arasında ekoloji şüurun yüksəldilməsinin, ətraf mühitin mühafizəsi problemlərinə diqqətin yönəldilməsinin vacibliyini nəzərə alan iştirakçılar 5 iyunun "Ümumdünya Ətraf Mühit Günü" kimi qeyd olunmasına qərar verib və növbəti ildən başlayaraq həmin gün bütün dünyada təntənəli şəkildə qeyd olunmağa başlanılıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi hər il Ümumdünya Ətraf Mühit Günü ərəfəsində ətraf mühitin qorunması, təbiətdən, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması məqsədi ilə müxtəlif tədbirlər həyata keçirir.



# 200 İL ƏVVƏL BATMIŞ GƏMİ AŞKARLANIB

***Türkiyənin Dokuz Eylül Universitetinin mütəxəssisləri İzmit körfəzi yaxınlığındakı Çiğli sularında batmış gəmi aşkar ediblər.***

Mütəxəssislər hesab edirlər ki, uzunluğu 78 metr, eni 8 metr olan bu gəmi təxminən 200 il əvvəl qərq olub. Balıqçı gəmisi olduğu ehtimal edilən gəmi 42 metr dərinlikdədir. Bildirilir ki, bu, İzmit körfəzində aşkarlanan beşinci batmış gəmidir.

# QAYIĞIN KAPİTANI HAZIRDA POLİS İDARƏSİNDƏ DİNDİRİLİR

***Çinin Anhuy vilayətində fermerləri daşıyan qayığın batması nəticəsində ən azı 4 nəfər ölüb.***

Yerli hakimiyyət orqanlarının yaydığı məlumata əsasən, hadisə səhər saatlarında Ciancuy kəndi ərazisində baş verib. Dərhal hadisə yerinə gələn xilasedicilər 3 nəfəri xilas ediblər. Qayıqdakıların sayının dəqiq bilinməməsi ölənlərin neçə nəfər olduğunu müəyyən etməyə imkan vermir. Bu səbəbdən itkin düşmək ehtimalı olanların axtarışı davam edir. Qayığın kapitanı hazırda polis idarəsində dindirilir.



# SAHİL MÜHAFİZƏÇİLƏRİ DÖRD BALIQÇINI XİLAS EDİBLƏR

***Cənubi Koreyanın sahil mühafizə xidmətinin hərbçiləri ölkənin şərq sahil sularında iki ayrı qayıqda 4 şimali koreyalını xilas ediblər.***

Yonhap agentliyi Cənubi Koreyanın Birləşmə Nazirliyinə istinadla xəbər verir ki, üç balıqçı bir qayıqda, biri isə digər qayıqda tək olubmuş. Nazirliyin rəsmisi Li



Duk-haenq Şimali Koreya vətəndaşlarının xilası ilə bağlı hazırda araşdırma aparıldığını, onların Şimali Koreyaya qaytarılmasına dair qərarı Cənubi Koreya hökumətinin verəcəyini bildirib.

Qeyd edək ki, bir neçə gün əvvəl də Cənubi Koreya sularında xilas edilmiş 6 şimali koreyalı balıqçı ölkələrinə təhvil verilmişdi.

# AVİADAŞIYICI GƏMİLƏR YAPON DƏNİZİNİ TƏRK EDİBLƏR

***ABŞ-ın "Carl Vinson" və "Ronald Reagan" aviadaşıyıcı gəmiləri üçgünlük təlimləri başa vuraraq, Yapon dənizini tərk ediblər. Bu barədə NHK telekanalı məlumat yayıb.***

Aviadaşıyıcı gəmilər dörd həftə bundan əvvəl, Şimali Koreyanın ballistik raket sınağından sonra Yapon dənizində birgə təlimlərdə iştirak ediblər. Təlimlər başa çatdıqdan sonra bu gəmilər Yapon



dənizini tərk ediblər. "Carl Vinson" gəmisi dislokasiya yerinə, Kaliforniyadakı San-Dieqo limanına, "Ronald Reagan" gəmisi isə ABŞ-ın Tokionun yaxınlığındakı Yokosuke bazasına yollanıb.

Sakit okeanın qərbində patrul xidmətini "Carl Vinson" gəmisinin əvəzinə "Nimits" aviadaşıyıcısı yerinə yetirəcək. "Nimits"in iyulda Hind okeanına gedərək burada Hindistan və Yaponiya silahlı qüvvələri ilə birlikdə hərbi təlimlərə qatılacağı, bundan sonra Fars körfəzinə yollanacağı bildirilir.

Yaponiya Müdafiə Nazirliyinin yaydığı məlumata görə, Koreya yarımadasında vəziyyət gərginləşəcəyi təqdirdə bu gəmi hər an marşrutunu dəyişə bilər.



## İTALİYA SAHİLLƏRİNDƏ 500-Ə YAXIN MİQRANT XİLAS EDİLİB

***Aralıq dənizində Şimali Afrikadan olan 500 nəfərə yaxın miqrant xilas edilib.***

İtaliya Sahil Mühafizə Xidmətinin məlumatına görə, xilasetmə əməliyyatları zamanı 484 miqrant dörd sahil mühafizə qayığının, İtaliya donanmasının gəmilərinin, Almaniyanın "NGO Sea-Watch" və "OHIO" ticarət gəmilərinin iştirakı ilə qayıqlardan çıxarılıb.

İtaliya Daxili İşlər Nazirliyinin məlumatında isə deyilir ki, bu günədək Aralıq dənizində 45 min insan xilas edilib və bu, 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 44 faiz çoxdur.

Beynəlxalq Miqrasiya Təşkilatı Aralıq dənizinin sərhədini keçməyə cəhd edən 1309 miqrantın öldüyünü açıqlayıb. Onların əksəriyyətini Nigeriya, Banqladeş, Qvineyadan və Kot d'İvuar vətəndaşları təşkil edib.



## DÜŞMƏNLƏRİNİ DƏ TANIYIRLAR, DOSTLARINI DA?

***Fox News telekanalı ABŞ əhalisi arasında belə bir sorğu keçirib: kimi Amerikanın düşməni, yaxud dostu hesab edirsiniz?***

Interfax informasiya agentliyinin verdiyi xəbərə görə, rəy sorğusunun nəticələri əsasında hazırlanmış reytinqdə birinci yerdə Şimali Koreya dayanır. Onu amerikanların 93 faizi ABŞ-ın düşməni hesab edir. Sonrakı sıralama belədir: İran (80 faiz), Suriya (76 faiz), Rusiya (64 faiz).

Bununla yanaşı, rəyi soruşulan amerikalıların 73 faizi bu fikirdədir ki, onların dövlət başçısı Donald Tramp Rusiyanı müttəfiq sayır. Bunun əksini düşünənlər isə 20 faiz təşkil edir.

Telekanal qeyd edir ki, son illərdə ABŞ vətəndaşlarının Rusiyaya münasibəti xeyli pisləşib. Belə ki, 2013-cü ilin martınadək (Krımın Rusiyaya birləşdirilməsinə qədər) amerikanların 47 faizi Rusiyanı dost, yalnız 40 faizi düşmən dövlət hesab edirdi. Beləliklə, son dörd ildə Moskvaya düşmən münasibəti bəsləyənlərin sayı 24 faiz artıb.

ABŞ-ın əsas dostlarına və müttəfiqlərinə gəlincə, bu reytinqdə birinci yeri 96 faiz səslə Kanada tutur. Respondentlərin 95 faizi dost dövlətlər sırasında Böyük Britaniyanın, 92 faizi Fransanın, 87 faizi Almaniyanın adını çəkib.

## ƏN BÖYÜK ÜZƏN ELEKTRİK STANSİYASI YARADILIB

***Çində dünyanın ən böyük üzən günəş elektrik stansiyası istifadəyə verilib və qurğunun gücü 40 meqavat təşkil edir.***



2020-ci ilədək Çin bir neçə belə üzən elektrik stansiyası quraşdırmağı planlaşdırır. Bunun nəticəsində elektrik enerjisinin dəyəri ən azı üç dəfə düşə bilər. Alimlərin fikrincə, bu elektrik stansiyasından təxminən 100 min nəfər fasiləsiz istifadə edə bilər.

Bundan bir müddət əvvəl Çində 20 meqavat gücündə elektrik stansiyası quraşdırılmışdı. Üzən elektrik stansiyalarının istifadə səmərəliliyi hələ bir neçə il əvvəl sübut olunub. Belə enerji qurğusu yüksək faydalı iş əmsalına malikdir və quruda çox yer tutmur. Çin artıq bir neçə ildir nəhəng alternativ enerji istehsalına sahibdir və qüdrətini ildən-ilə artırır.

## İKİNCİ DÜNYA MÜHARİBƏSİ ZAMANI İTMİŞ TƏYYARƏ SAKİT OKEANDA TAPILIB

***Yetmiş il bundan əvvəl, İkinci Dünya müharibəsi zamanı itmiş təyyarə Papua-Yeni Qvineyada, Sakit okeanda aşkar edilib.***



Alimlər "B-25" adlanan bu təyyarənin 1942-ci ildə bombalama, nəzarətetmə, informasiya toplama kimi funksiyaları yerinə yetirdiyini bildiriblər.

1942-1945-ci illər arasında müharibədə ölən əsgərlər, o cümlədən baş verənlər haqqında heç bir məlumat yox idi, yalnız bu kimi qurğular sayəsində informasiya əldə etmək olardı. Lakin müharibənin bitməsinə yaxın həmin köməkçi qurğular ya itmiş, ya da məhv edilmişdi.

ABŞ-da "BentProp" təşkilatının üzvləri, həmçinin Kaliforniya, San-Dieqo və Delaver universitetlərinin alimləri bir komanda halında birləşərək itmiş təyyarə haqqında məlumat toplaya biliblər.



## YENİ AVİADAŞIYICI GƏMİ 12,9 MİLYARD DOLLARA BAŞA GƏLİB

***ABŞ Hərbi Dəniz Qüvvələrinin sərəncamına dəyəri 12,9 milyard dollar həcmində qiymətləndirilən Gerald R. Ford adlı ən yeni aviadaşıyıcı gəmi verilib.***

Bu barədə məlumatı "Stars and Stripes" portalı yayıb. Məlumatda bildirilir ki, aviadaşıyıcı istismara bilavasitə yalnız 2020-ci ildə hazır olacaq. Gələcəkdə bu tip azı iki aviadaşıyıcı tikmək planlaşdırılır.

Hərbi Dəniz Qüvvələrindən bildirirlər ki "Gerald R. Ford" bundan əvvəlki aviadaşıyıcı gəmilərə nisbətən bir sıra texnoloji üstünlüklərə malikdir. Belə ki, o, daha çox təyyarə daşıya bilir və bu zaman xidmət üçün daha az hərbçi tələb olunur.

Portal xatırladır ki, aviadaşıyıcının verilməsi bir neçə dəfə təxirə salınmışdı: bu, 2015-ci ilə planlaşdırılırdı və gəminin ilkin qiyməti 10,5 milyard dollar idi.

## BMT DÜNYA OKEANINDA PLASTİK TULLANTILAR ƏLEYHİNƏ MÜBARİZƏ APARMAQ NİYYƏTİNDƏDİR

***Əgər insanlar sellofan paket və plastik butulka kimi birdəfəlik plastik məmulatdan istifadə etməkdən əl çəkməsələr, 2050-ci ilə qədər Dünya okeanında balıqdan çox plastik kütlə olacaq. Bunu BMT-nin məlumatları təsdiq edir.***

BMT-nin Ətraf Mühit Proqramının (UNEP) mütəxəssisləri bildirirlər: "Plastik kütlə İndoneziya çimərliklərinə axıdılır, Şimal Buzlu okeanın dibinə çökür və qida zənciri vasitəsilə süfrələrimizə yol açır".

1950-ci ildə dünya əhalisi (2,5 milyard adam) 1,5 milyon ton plastik kütlə istehsal edib. 2016-cı ildə planetimizin sakinlərinin sayı 7 milyard nəfəri ötüb, plastik kütlənin miqdarı isə 300 milyon tona çatıb və bu da dəniz bitkiləri və heyvanları üçün əsl fəlakətə çevrilib.

UNEP-in mətbuat katibi Petter Malvik BMT-nin Xəbərlər Xidmətinə müsahibəsində bildirib ki, bəzi hesablamalara görə, bu əsrin ortalarına qədər dəniz quşlarının 99 faizi müəyyən miqdarda plastik kütlə udacaq.



Birləşmiş Millətlər Təşkilatı bu ilin fevralında İndoneziyanın Bali adasında keçirilən Dünya okeanı üzrə Ümumdünya sammitində plastik kütləyə müharibə elan edib. Həmin sammitdə "Təmiz dənizlər" ((#CleanSeas) kampaniyasına start verilib. BMT bu kampaniya çərçivəsində hökumətləri plastik kütlə istehsalının azaldılması üçün tədbirlər görməyə, sənayeni plastik qablaşdırma istehsalının azaldılmasına təşviq etməyə, insanları öz vərdişlərindən əl çəkməyə inandırmağa çağırır.

Petter Malvikin sözlərinə görə, "Təmiz dənizlər" kampaniyası artıq müəyyən uğurlar qazanıb. Amma onun müvəffəqiyyətlə başa çatmasına hələ çox var. Kampaniya şəxsi gigiyena əşyalarında və kosmetik mallarda mikroqranullardan istifadəyə qlobal qadağa qoyulmasına, habelə birdəfəlik plastik məmulatın istehsalının və istifadəsinin əhəmiyyətli dərəcədə azaldılmasına nail olmaq məqsədi daşıyır.




## TRAULERİN GÖYƏRTƏSİNDƏ QEYRİ-LEQAL YÜK–QIZIL KÜLÇƏLƏR AŞKAR OLUNUB

***İyunun 1-də Yaponiyanın Sahil Mühafizəsinin əməkdaşları cənub-qərbdə yerləşən Kyuşu adasının Karatsu limanına daxil olan traulerin göyərtəsində ümumi çəkisi 206 kiloqrama bərabər olan qeyri-leqal yük–qızıl külçələr aşkar ediblər. Bu barədə Kyodo agentliyinin yaydığı məlumatda bildirilir ki, müsadirə edilən yükü daşıyan bir neçə nəfər saxlanılıb. Gəminin mənsub olduğu ölkə barədə məlumat verilmir.***

Yaponiyada qızılın qiyməti baha olduğuna görə, son vaxtlar Kyuşu adası Cənubi Koreyadan və Çindən gətirilən leqal və qeyri-leqal qızılın ticarəti mərkəzinə çevrilib.

Ötən ilin dekabrında Fukuoka şəhərində cinayətkarlar 700 milyon yen (təqribən 6 milyon dollardan çox) dəyərində qızıl külçələri qarət etmişdilər. Cari ilin mayında bu işlə əlaqədar bir qrup yapon həbs edilib. Hazırda istintaq davam edir.

*Vüqar Ağayev*

## ƏN ÇİRKLİ YER

***Sakit Okeanda yerləşən və sahəsi cəmi 3,7 hektar olan kiçik Henderson adası dünyanın ən çirkli yeri sayılıb. Bu barədə məlumatı Tasmaniya Universitetinin (Avstraliya) tədqiqatçılarına istinadla "The Guardian" yayıb.***

"Ecoportal" saytı xəbər verir ki, alimlər Henderson adasında ümumi çəkisi 17,6 ton olan təqribən 38 milyon plastik kütlə parçası aşkarlayıblar. Çirklənmənin sıxlığı hər kvadratmetrə təxminən 670 belə zibil parçası təşkil edib. Üstəlik, adanın çimərliyi hər gün daha da zibillənir.



Tasmaniya Universitetinin Dəniz və Antarktida Tədqiqatları İnstitutunun mütəxəssisi Cenifer Lavers deyib: "Mən və həmkarlarım güman edirdik ki, adanın uzaqda yerləşməsi onun təmiz qalmasını təmin edəcək. Ancaq biz çox yanılmışıq. Adada biz köhnə, kövrək, iti və zəhərli plastik zibil qalaqlarını gördük. Onların üzərində kosmetika qablarında özlərinə yuva qurmuş krablar sürünürdü. Bunu sənədləşdirmək qərarına gəldik".

C.Lavers vurğulayıb ki, sivilizasiyadan uzaqda yerləşən kimsəsiz adanın vəziyyəti göstərir ki, hazırda plastik material "heyrətamiz" sürətlə istehsal olunur və hətta insan ayağı dəyməyən yerləri də çirkləndirir.

## YARIZARAFAT, YARIGERÇƏK

**Simalarını itirdikləri üçün bəzilərini tanımaq olmur?**

**Siqaret çəkmək istəyənin alışqanını şeytan yetirir.**

**Bəziləri başqalarının boynunda lap biletli sərnişinlər kimi oturur.**

**İşdən kənarda min düşmənin olsun, işdə bir düşmənin olmasın.**

**Dostunun düşmənləri ilə də, düşməninin dostları ilə də ehtiyatlı dolan.**

**Yüzlərlə quşu uçurtmaq üçün kiçik bir daş kifayət etdiyi kimi, ailəni dağıtmaq üçün də ürək sındıran bir söz bəsdir.**

**Ümidsizlikdən böyük düşmən yoxdur.**

**Ağlamağı adama zəmanə öyrətsə də, gülməyi özün öyrənməlisən.**

**Tale ancaq bəzi adamlara gülməyi bacarır?**

**Həyata olduğu kimi baxanda problemləri həll etmək daha asan olur.**

**Dünyanın düz vaxtı nə vaxt olub: Adəm və Havvadan qabaq?**

**Yeni hədəflərə doğru da köhnə yalanlarla getmək nə dərəcədə doğrudur?**

**Dünya malına səcdə edəni ən azı, ateist saymaq doğru deyil.**

**Yaxşı ki, qulağımı tez-tez kəsiblər. Kəsməsəydilər, kim bilir, qulaqlarım indi nə boyda idi.**

**Ərini gözündən çox uzağa buraxan qadın əlindən də buraxa bilər.**

**Subayla evli kişinin bir fərqi var:subay evə qaçır, evli evdən.**

**Yalnız özü haqqında fikirləşən o qədər də pis adam deyil. Daha pis o adamdır ki, heç nə barədə fikirləşmir.**

**Xasiyyətlərinin düz gəlmədiyini bilmək üçün kişi və qadına mütləq evlənmək lazımdır?**

**Mənə elə gəlir ki, bəziləri başqalarını axtardıqları üçün həyatda özlərini tapa bilmirlər.**

**Bəziləri görəndə ki, öz ağlı ilə yaşasalar, çatışmayan təkcə ağılları olmayacaq, başlayırlar başqalarının ağlı ilə yaşamağa.**

**Adam var, öz ağlıyla yaşamağa heç cəhd də etməyib.**

**Təkcə ürəyini yox, hətta həyatin qapısını da hər kəsə açmaq olmaz.**

**Axmaqları ağıllılardan mütləq ayırmaq lazımdır. Təbii ki, bunu axmaqlar edən deyillər.**

**Adamları təhqir etmək cinayətdir, tənqidi isə heç kəs xoşlamır. Qalır bircə tərifləmək?**

**Adam var, bir gün o tərəfə işləyir, bir gün bu tərəfə işləyir. Yəqin nə vaxtsa bizim tərəfə də işləyəcək.**

**Hamı özünü haqlı sayır. Gör haqq nə günə qalıb e...**

**Hətta yeməyə heç nə olmayanda da başqasının haqqını yemək olmaz.**

**Bir söhbətdən yalanın zərrəcə qoxusu gəlirsə, o söhbəti eşitməmək yaxşıdır.**

**Güləşin ən pis növü söz güləşdirməkdir.**

**Bir bu gün iki sabahdan və bütün dünənlərdən yaxşıdır.**

**Yalanı həqiqətdən vaxtında ayırmasan, bütün həyatın qarışacaq.**

**Bəzilərinə elə gəlir ki, uca görünmələri üçün başqalarını alçatmaq lazımdır.**

**Axmaqlığın birinci əlaməti özünü çox ağıllı saymaqdır.**

**Yalnız özünü sevən sevginin nə olduğunu bilməyəndir.**

**Dəhşətdir. Bir o qalıb ki, yalançılar yalanları ilə fəxr etsinlər.**

**Çox gəzən yox, çox anlayan çox bilər.**

**Təhlükəsizliyə görə təndirləri yığışdırmaq lazımdır. Tələsənlərin əksəriyyəti təndirə düşür.**

**Dünya zərrəcə dəyişməyib. Yenə yaxşılığa yamanlıqla cavab verirlər.**

**Arxasınca deyə bilmərəm, amma yaxşı adamın üzünə həyat nadir hallarda gülür.**

**Allah hər kəsə nə vaxtsa bir qapı açır. Adamlar adətən başqalarının qapısından keçməyə cəhd etdiklərindən öz qapılarından xəbərləri belə olmur.**

**Nəyə nə qədər hazırsansa, o qədər də nail olacaqsan.**

**Pis adamdan da öyrən. Düşmənlə savaşda gərəyin olar.**

**Mən mat qalmamaq üçün heç şahmat da oynamıram.**

**Hər şeyi korlayan adamlar əllərini ağdan-qaraya vurmasalar yaxşıdır.**

**Mənim həmişə bir qələmim, iki pozanım olub.**

**Qadınlar kişilərlə mübahisə edəndə nədənsə şeytan həmişə qadınların tərəfində olur.**

**Bəzi qadınları kişinin başının boşluğundan çox, cibinin boşluğu narahat edir.**

**Əgər bir kişi heç vaxt başını itirmədiyini deyirsə, deməli heç vaxt sevməyib.**

**Şeytan həmişə yalnız və yalnız öz işi ilə məşğul olur. Çünki o, şeytandır.**

**Dostların azalma, düşmənlərin isə həmişə artma ehtimalı olur.**

**Mən sağlamlığımı itirdim. İndi də deyəsən xəstəliklər məni itirməyə çalışır.**

***Rasif TAHİROV***



## QALİB LİMANÇILARLA GÖRÜŞ KEÇİRİLİB

***İslam Həmrəyliyi Oyunlarında qalib gələn limançılarla görüş keçirilib.***

Bu barədə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, iyunun 1-də Bakı Limanının baş direktoru Taleh Ziyadov "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında qalib gəlmiş və eyni zamanda, liman əməkdaşı olan idmançılar və məşqçi ilə görüş keçirib.

"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil olan növlər arasında xüsusi yeri olan zorxana yarışlarında çərxi-tiz növündə bürünc medal, çərxi-çəməni və komanda hərəkətləri növündə isə gümüş medal qazanan Orxan Xanlarov, eyni zamanda, Bakı Limanında mühafizəçi olaraq fəaliyyət göstərir.

Görüşdə iştirak edən digər liman əməkdaşı, Azərbaycanın yunan-Roma güləşçisi Elvin Mürsəliyev isə (75 kiloqram) IV İslam Həmrəyliyi Oyunlarında final mərhələsində rəqibinə 1:0 hesabı ilə qalib gələrək qızıl medal qazanıb. Qeyd edək ki, Elvin Mürsəliyevin məşqçisi İlqar Abdulov yunan-Roma güləşi üzrə yığma komandanın böyük məşqçisi və gənclərdən ibarət komandanın baş məşqçisidir. Eyni zamanda, Bakı Limanında baş direktorun müşaviri olaraq fəaliyyət göstərir.

Taleh Ziyadov hər iki idmançını və məşqçini təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar diləyib. Vurğulanıb ki, liman işçilərinin fiziki hazırlığının yüksək saxlanılması daim diqqət mərkəzindədir və bundan sonra da yerli və beynəlxalq yarışlarda işçilərin iştirakı dəstəklənəcək.

Daha sonra Bakı Limanı adından onlara hədiyyələr təqdim edilib.

## AZƏRBAYCAN DÖYÜŞÇÜSÜ RUSİYADA DÜNYA ÇEMPİONU OLUB

***Rusiyanın Kislovodsk şəhərində yeniyetmələr, gənclər və böyüklər arasında qaydasız döyüş növləri (MMA) üzrə dünya birinciliyi və çempionatı keçirilib. Sayca 7-ci dəfə təşkil olunan çempionatda 15 ölkədən 161 idmançı qalib adı uğrunda mübarizə aparıb.***




Yarışda böyük əzmkarlıq nümayiş etdirən "Neftçi İdman Klubu"nun yetirməsi Ehtiram Dərişov bütün döyüşlərdən qalib ayrılaraq böyüklər arasında dünya çempionu adını qazanıb. Turnirdə 57 kiloqram çəkidə çıxış edən idmançımız Tacikistan və Hindistan təmsilçilərini məğlub edərək finala vəsiqəni təmin edib. Həlledici görüşdə rusiyalı İrisxan Makayev üzərində tam qələbə qazanan E. Dərişov dünya çempionatının qızıl medalına sahib olub.

Qeyd edək ki, klubun idmançılarının da yer aldığı komanda yarışlarında Azərbaycan yığması 3-cü yeri tutub.



## "DÜNYANIN ƏN YAXŞI YENİ STADİONU"

***Qətərin paytaxtı Dohada Dünya Stadionlar Konqresi keçirilib.***

Tədbirin sonunda müxtəlif nominasiyalar üzrə dünyanın ən yaxşı stadionları adına layiq görülən arenalar mükafatlara layiq görülüb.

Bakı Olimpiya Stadionu (BOS) "Dünyanın ən yaxşı yeni stadionu" nominasiyasında mükafatla təltif edilib. BOS-un tikintisində iştirak edən "TEKFEN İnşaat" şirkəti də mükafata layiq görülüb.

Müxtəlif kateqoriyalar üzrə Moskvadakı "VTB Arena", Barselonadakı "Kamp Nou", Aşqabad Olimpiya Stadionu və Birləşmiş Ərəb Əmirliklərindəki "Həzza Bin Zayed" stadionu da qalib elan edilib.

Müsabiqənin münsiflər heyəti məşhur tikinti mütəxəssisləri Filip Herpel, Mark Fenvik və Kris Daytdan ibarət olub.

## ŞƏHRİYAR MƏMMƏDYAROV YENİDƏN DÜNYANIN ƏN GÜCLÜ ŞAHMATÇILARININ İLK ONLUĞUNDADIR

***FIDE iyunun əvvəli üçün planetin ən yaxşı şahmatçılarının reytinq cədvəlini dərc edib.***

Kişi şahmatçıların ilk onluğunda Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov da var. O, reytinq göstəricisini 28 bənd artıraraq 2800-ə çatdırıb. Hazırda Məmmədyarov reytinq siyahısında birinci yeri tutan norveçli Maqnus Karlsendən 31 bənd geri qalır.

Liderlər siyahısında birinci yerdə dünya çempionu Maqnus Karlsendir (2831). Növbəti yerləri amerikalı Uesli So (2812), rusiyalı Vladimir Kramnik (2808), amerikalı Fabio Karuana (2805), azərbaycanlı Şəhriyar Məmmədyarov (2800), fransız Maksim Vaşye-Laqrav (2795), erməni Levon Aronyan (2793), hindistanlı Vişvanatan Anand (2786), amerikalı Hikaru Nakamura (2785) və çinli Din Lijen (2783) tutur.

Ən güclü 100 şahmatçı arasında Azərbaycan nümayəndələri Teymur Rəcəbov (2724) 28-ci, Arkadi Naydiç (2710) 37-ci, Rauf Məmmədov (2689) 58-ci, Eltac Səfərli (2656) 97-ci yerdədir.

Qadınların reytinq siyahısında lider mövqeləri yenə çinli Hou İfan (2666), onun həmyerlisi Tszyuy Ventszyun (2583) və ukraynalı Anna Muzıçuk (2569) tutur.

Rapid və blits üzrə dünyanın ilk onluğunda heç bir dəyişiklik olmayıb.

## RİQA 2021-Cİ İLDƏ AVROPANIN İDMAN PAYTAXTI TİTULUNA İDDİA EDİR

***2017-ci ilin əvvəlində Riqa şəhəri Avropanın Paytaxt və İdman Şəhərləri Assosiasiyasının dəvətinə cavab olaraq 2021-ci ildə Avropanın idman paytaxtı statusu almaq üçün öz namizədliyini irəli sürüb.***




Riqa Dumasının bəyanatında vurğulanır: "Riqa qədim idman ənənələrinə, dinamik idman həyatına və inkişafı davam etdirmək ambisiyalarına malik olan şəhərdir".

2021-ci ildə Avropanın idman paytaxtı titulunu almaq üçün Riqanın zəruri təcrübəsi, resursları və motivasiyası var.

Riqa ilə yanaşı Lissabon və Haaqa şəhərləri də bu titula iddia edir.






## "DƏNİZÇİ GÜNÜ" MÜNASİBƏTİ İLƏ FOTO MÜSABİQƏ

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəsmi mətbuat orqanı olan "Dəniz" qəzeti 25 iyun – "Dənizçi günü" münasibəti ilə əməkdaşlar arasında foto müsabiqə elan edir.***




**ŞƏRTLƏR AŞAĞIDAKI KİMİDİR:**

1. Müsabiqədə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin əməkdaşları ilə yanaşı, gələcəyin dənizçiləri - Azərbaycan Dövlət Dəniz Akademiyası və onun nəzdində olan Dənizçilik kollecinin tələbələri də iştirak edə bilərlər.

2. Göndərilən foto dənizçi peşəsi və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə əlaqəli olmalıdır.

3. Bir iştirakçı yalnız bir şəkil göndərə bilər.

4. Kompyuter effektləri və foto montajdan istifadə edilə bilməz. Bununla belə, şəkillər mümkün qədər keyfiyyətli olmalıdır.

5. Fotolar son 6 ay ərzində çəkilməlidir.

6. İştirakçı fotoların müsabiqədə istifadəsinin üçüncü şəxslərin hüquqlarını pozmadığına zəmanət verir və insan təsvirlərindən qeyri-qanuni istifadəyə görə məsuliyyət daşıyır.

Copyright

7. Fotolar çəkilərkən əmin olmaq lazımdır ki, kadrda Cəmiyyətin işçisinin həyatı və əmlakı təhlükə, risk altında deyil. SƏTƏMM normalarına riayət olunması mütləqdir.

**Qeyd:** *Yalnız yuxarıda qeyd olunan qaydalara uyğun çəkilən fotoların müəllifləri iştirakçı statusu qazanacaqlar. Müsabiqəyə qəbul olunan fotolar yaradılmış xüsusi komissiya tərəfindən seçiləcək.*

**Müsabiqəyə çıxarılan fotoşəkillərin qiymətləndirilməsi aşağıdakı qaydada aparılacaq:**

1. Müsabiqəyə qəbul olunmuş şəkillər "seanews.az" (https://www.facebook.com/seanews.az/) facebook səhifəsində paylaşılacaq.

2. Qalib "like"-ların sayı və xüsusi komissiyanın qərarı ilə müəyyənləşdiriləcək.

3. "Like"-ların təhlili zamanı saxta hesablardan verilən səslər xaric ediləcək.

4. Ən yaxşı beş fotonun müəllifi hədiyyə ilə mükafatlandırılacaq.

**Fotolar mayın 25-dən iyunun 20-dək qəbul olunacaq və seanews.az@gmail.com elektron ünvanına göndərilməlidir.**

**Qeyd olunan tarixdən gec göndərilən fotoşəkillər qəbul edilməyəcək. Qaliblərin adı 23 iyunda açıqlanacaq.**

*Şəkil yollayarkən ad və soyad, vəzifə, əlaqə nömrəsini yazmaq mütləqdir.*







BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1005, Bakı şəhəri,
M. Ə. Rəsulzadə küçəsi, 5

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1644